# ÜST-dən xəbərdarlıq

## Xəstəxanalar istilik dalğalarına ciddi hazırlaşmalıdırlar

**Avropa ölkələri həddindən artıq isti hava şəraiti fonunda səhiyyə sistemlərini pandemiyaya qarşı hazırlıqlarla eyni səviyyədə təşkil etməlidirlər.**

Bu barədə Dünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Kluqe TASS-a açıqlama verib:



”Xəstəxanaların hazırlığına pandemiya hazırlığı qədər ciddi yanaşılmalıdır. Bu yayın dərsləri konkret və praktik xarakter daşıyır”.

ÜST-ün altı regionundan biri olan Avropa regionu Avropa və Mərkəzi Asiya boyunca yerləşən 53 dövləti, o cümlədən Rusiya, Türkiyə, Qafqaz ölkələri, Qazaxıstan, Qırğızıstan və Tacikistanı əhatə edir.


№ 27 (6508) 2026-cı il

Qiymәti 50 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 - 31 iyul 2026-cı il (cümə)





# Sərnişinlərin həyatı təhlükədə...

## Hərəkətdə olan qatarlara 6 ayda 21 dəfə daş atılıb

**Bir daş təkcə qatarın şüşəsini sındırmır. O, insanların həyatını təhlükəyə atır.**

**“Şərq” xəbər verir ki, 2026-cı ilin ilk 6 ayında ADY-nin hərəkətdə olan sərnişin qatarlarına 21 dəfə daş atılıb.**

Bu hadisələr nəticəsində qatarlara ziyan dəyib, sərnişinlərin və qatar heyətinin təhlükəsizliyi ciddi risk altına düşüb.

Bu cür qanunsuz hərəkətləri törədən şəxslər hüquq-mühafizə orqanları tərəfindən müəyyən edilərək qanunvericiliyə uyğun qaydada cəzalandırılır. Azyaşlıların törətdiyi hallarda isə onların valideynləri və ya qanuni nümayəndələri qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət daşıyırlar.

Validenlərdən xahiş edirik ki, uşaqlarını bu cür təhlükəli hərəkətlərdən çəkindirsin, onlarla dəmir yolu ətrafında təhlükəsiz davranış qaydaları barədə söhbət etsinlər.



# Məcburi köçkünləri gözləyən dəyişiklik

## Yeni qanun qüvvəyə mindi, bu halda məcburi köçkün statusu ləğv olunacaq

**”Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” və ”Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” qanunlara dəyişiklik təsdiqlənib.**

“Şərq” xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı adıçəkilən qanunlara dəyişiklikləri imzalayıb.


(səh.2)


# Tramp İrana yeni hücumun anonsunu verdi

## Yaxın Şərq yenidən müharibənin astanasındadır



**ABŞ Prezidenti Donald Tramp İrana qarşı əvvəlki hərbi əməliyyatlardan daha genişmiqyaslı zərbələrin endirilməsi imkanını ciddi şəkildə nəzərdən keçirdiyini bildirib. Tramp bu barədə ”Axios” nəşrinə müsahibəsində danışıb.**

ABŞ Prezidenti hələlik yekun qərar vermədiyini qeyd edib.

”Mən böyük bir hücum planlaşdırıram. Əvvəlkindən daha böyük. Qərar verməyə yaxınam. Hamımız buna hazırıq”, - deyə Tramp bildirib.

Məlumata görə, söhbət İranda əsas döyüş əməliyyatlarının, o cümlədən ”Epik qəzəb” əməliyyatı zamanı həyata keçirilən zərbələrdən daha genişmiqyaslı hərbi əməliyyatların yenidən başlanması ehtimalından gedir.

ABŞ Prezidenti Donald Trampın İrana qarşı əvvəlkindən daha genişmiqyaslı hərbi əməliyyat ehtimalını gündəmə gətirməsi Yaxın Şərqdə onsuz da kövrək olan təhlükəsizlik mühitini yenidən dünyanın əsas müzakirə mövzusuna çevirib. Trampın ”böyük bir hücum planlaşdırıram” açıqlaması hələlik yekun qərarın verilmədiyini göstərsə də, Vaşinqtonun hərbi variantı aktiv şəkildə gündəmdə saxladığını nümayiş etdirir.

Son illər ABŞ-İran münasibətləri nüvə proqramı, raket sınaqları, regiondakı silahlı qruplar və iqtisadi sanksiyalar fonunda dəfələrlə gərgin mərhələdən keçib. Buna görə də Trampın son bəyanatı adi siyasi ritorikadan daha çox, Tehrana və beynəlxalq ictimaiyyətə verilmiş strateji mesaj kimi qiymətləndirilir.

Müşahidəçilərin fikrincə, Vaşinqton bu cür sərt bəyanatlarla İrana diplomatik və psixoloji təzyiq göstərməyə çalışır. Məqsəd Tehranı müəyyən güzəştlərə məcbur etmək, eyni zamanda ABŞ-nin regiondakı müttəfiqlərinə təhlükəsizlik zəmanətinin davam etdiyini nümayiş etdirməkdir.

Lakin mümkün hərbi əməliyyatların yenidən başlaması təkcə ABŞ və İran arasında qarşıdurma demək deyil. Belə bir senari bütün Yaxın Şərqdə gərginliyi artıra, enerji bazarlarında qeyri-sabitlik yarada və neft qiymətlərinin yenidən yüksəlməsinə səbəb ola bilər. Xüsusilə Hörmüz boğazında yaranacaq hər hansı təhlükə qlobal enerji təchizatına birbaşa təsir göstərə bilər.

Ekspertlər hesab edirlər ki, Trampın açıqlaması ABŞ-nin daxili siyasi gündəmi ilə də əlaqəli ola bilər.


(səh.3)




# 1875-dən 2026-ya uzanan yol: Zərdabinin çırağı hələ də yanır

## Həsən bəy Zərdabinin məzarı önündə müqəddəs peşənin keçmişindən, bu günündən və sabahından danışıldı

**Təqvim 22 iyul 2026-cı il, saatın əqrəbləri isə təxminən günorta bir radələrini göstərir. Əllərimizdə al-qırmızı qərənfillərlə Fəxri xiyabanın girişindəyik. Hava istidir, ətrafda qəribə bir sakitlik hökm sürür.** Bu sakitliyi isə ziyarətə gələn insanların asta addımları və pıçıltı ilə deyilən bayram təbrikləri pozur... Axı bu gün Milli Mətbuat Günüdür. Biz isə Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabini ziyarət etməyə gəlmişik.


(səh.3)


# Psixoloqa getmək xəstə olmaq demək deyil

## Şagirdləri damğalamaq yox, vaxtında dəstək vermək lazımdır



Son illər dünyada uşaqlar və yeniyetmələr arasında depressiya, təşviş pozuntuları, aqressiv davranış, məktəb zorakılığı, müxtəlif asılılıqlar və özünə zərər vermə hallarında artım müşahidə olunduğundan bir çox ölkələr bu problemlərin erkən aşkarlanmasına yönəlmiş preventiv mexanizmlər tətbiq etməyə başlayıb.


(səh.7)


# Tıxaclara qarşı yeni həll

## Təcili yardım motosikletləri Bakıda xidmətə başlayır




## Ambulans gələnə qədər həyatı motosiklet briqadası xilas edəcək

**Dünyanın bir sıra ölkələrində uğurla tətbiq olunan ”Ambucycle” modeli artıq Azərbaycanda da istifadəyə verilir. Tıxaclı şəhər şəraitində təcili tibbi yardımın hadisə yerinə daha qısa müddətdə çatmasını hədəfləyən bu xidmət ənənəvi ambulans sistemini tamamlayan yeni yanaşma kimi qiymətləndirilir. Xüsusilə həyati təhlükə yaradan hallarda ilk tibbi müdaxilənin vaxtında göstərilməsi baxımından modelin təcili tibbi yardım xidmətinin operativliyinə mühüm töhfə verəcəyi gözlənilir.**


(səh.4)




# Mərdəkanda faciə

## Dənizdə batan 21 yaşlı gəncin axtarışları 8 gündür davam edir

**İyulun 15-də Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində ən yaxın sularda xilasetmə məntəqəsindən 2 km aralı dənizdə nəzarətsiz ərazidə batan 2004-cü il təvəllüdlü Qarayev Elgün Elçin oğlunun axtarışları davam etdirilir.**

Bu barədə Fövqəladə Hallar Nazirliyindən bildirilib.

Hazırda axtarışlar FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilərı tərəfindən vətəndaşın batdığı ehtimal edilən istiqamətlər üzrə fasiləsiz olaraq həyata keçirilir.



# Azərbaycan müstəqil xarici siyasət yürüdən suveren dövlətdir

## Azərbaycan-Almaniya münasibətləri Rusiyaya qarşı yönəlməyib



**Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfərinə Rusiya mediasında inanılmayacaq səviyyədə qəribə, öz adı ilə desək, qeyri-siyasi, qeyri-diplomatik və primitiv reaksiya verilib.**

**Axar.az xəbər verir ki, Kremlə bağlı olan və Kremldən gələn siyasi direktivlərlə fəaliyyət göstərən "Lenta.ru" portalı Dövlət Dumasının hakim Vahid Rusiya Partiyasından olan deputatı Aleksandr Tolmaçevin fikirlərini işıqlandırıb. Gənc deputat Tolmaçev isə öz düşüncəsinə uyğun davranıb, Azərbaycanın "Ermənistanın yolunu tutmaq niyyətində olduğunu" uydurub:** "Bakı İrəvanın yolunu tutmaq niyyətindədir. Qeyd etmək istərdim ki, Rusiyadan uzaqlaşmaq və Avropaya yaxınlaşmaq heç vaxt heç kimə uğur gətirməyib. Əksinə, təcrübənin göstərdiyi kimi, belə bir qərar iqtisadi və siyasi problemlərə səbəb olur. Ermənistan artıq Rusiya ilə etibarlı, güclü və perspektivli əlaqələrin kəsilməsindən yaranan çətinliklərlə üzləşir". Qəribədir ki, Vahid Rusiyanın 33 yaşlı deputatlıq verilən gənci bununla kifayətlənməyib, Azərbaycanı hədələməyə davam edib, "Təəssüf ki, Azərbaycan Ukrayna və Ermənistanın səhvlərindən dərs çıxarmır" sözləri ilə normal siyasətçiyə utanc gətirən açıqlamalarına davam edib: "Avropa ölkələri ilə tərəfdaşlıq pis bir şey deyil, lakin problem ondadır ki, "yeni dostlar" Rusiya ilə əlaqələri kəsməyi əsas şərt kimi qəbul edirlər".

**Mövzunu "Şərq"ə şərh edən siyasi ekspert Elçin Xalidbəyli bildirib ki, Rusiyada, xüsusilə hakim partiyanı təmsil edən deputatların səsləndirdiyi fikirləri şəxsi mövqe kimi qiymətləndirmək doğru deyil. Onun sözlərinə görə, belə açıqlamalar adətən Kremlin siyasi tezislərinə və formalaşdırdığı gündəliyə uyğun şəkildə verilir:** "Bu baxımdan, sözügedən rusiyalı deputatın Azərbaycanla bağlı səsləndirdiyi fikirlər də rəsmi olmasa da, Kremlin qeyri-rəsmi siyasi mövqeyinin ifadəsi kimi dəyərləndirilə bilər. Rusiya neoimperialist bir dövlətdir. Kremldə elə bir düşüncə var ki, guya, postsovet ölkələrinin hamısı etdikləri bütün addımları Rusiya ilə razılaşdırmalıdır, Rusiyadan icazə almalıdır. Halbuki bu, absurd və məntiqsiz bir yanaşmadır. Rusiya özü hər hansı bir ölkə ilə münasibətlər quranda postsovet ölkələri ilə qətiyyən məsləhətləşmir. Və ona görə də postsovet ölkələrinin, o cümlədən də Azərbaycanın Rusiya ilə hər hansı bir məsələdə, yəni Rusiyaya aidiyyəti olmayan bir məsələdə Kremllə məsləhətləşməsinə qətiyyən ehtiyac yoxdur. Azərbaycan çoxvektorlu xarici siyasət kursu yürüdür. Dünyanın bütün ölkələri ilə normal münasibətlər qurmağa çalışır. O cümlədən də Avropa ölkələri ilə və onlardan biri olaraq da Almaniya ilə normal münasibətlər quraraq strateji tərəfdaşlıq əlaqələrinə malik olmağa, iqtisadi-ticari münasibətləri inkişaf etdirməyə çalışır. Və bu da rəsmi Bakının doğru siyasət yürütdüyünü göstərir. Və belə bir addımların atılması zamanı da, yəni Almaniya-Azərbaycan münasibətlərini inkişaf etdirərkən də Rusiyanın mövqeyini nəzərə almağa ehtiyac yoxdur, çünki bu, Rusiyaya aid məsələ deyil".

**Elçin Xalidbəylinin sözlərinə görə, Azərbaycan-Almaniya münasibətləri heç bir halda Rusiyaya qarşı yönəlməyib. Eyni zamanda, Azərbaycanın Rusiya ilə əməkdaşlığı da Almaniya daxil olmaqla hər hansı digər dövlətə qarşı formalaşdırılmır. Ekspert vurğulayıb ki, Azərbaycan müstəqil xarici siyasət yürüdən suveren dövlətdir və bütün ölkələrlə qarşılıqlı hörmətə, bərabərhüquqluluğa və milli maraqlara əsaslanan ikitərəfli münasibətlər qurmaq hüququna malikdir:** "Bakı bu hüququnu həyata keçirərkən hər hansı üçüncü dövlətin mövqeyindən deyil, öz milli maraqlarından çıxış edir. Rusiyanın neoimperialist mövqeyi isə istənilən halda hər hansı bir nəticəyə nail ola bilməz, çünki Azərbaycan artıq müstəqil xarici siyasət yürüdən bir ölkə kimi Rusiyanın yanaşma tərzinə bağlı ola bilməz. Əslində Kreml hələ də ümid edir ki, postsovet ölkələrinə nəzarəti əlində saxlaya biləcək, halbuki bu, həmin dövr artıq çoxdan arxada qalıb və postsovet ölkələri müstəqil münasibətlər qurmaq mərhələsini inkişaf etdirməkdədirlər. Təbii ki, Rusiyada hesab edirlər ki, belə açıqlamalarla, həm də dolayısı hədələrlə postsovet ölkələrini Qərb ölkələri ilə münasibətlər qurmaqdan çəkindirə bilərlər. Ancaq görünən ondan ibarətdir ki, Rusiyanın belə hədəflərə, yəni neoimperialist hədəflərə nail olması olduqca çətin məsələdir".

**Şəymən Bayramova**



# Məcburi köçkünləri gözləyən dəyişiklik

## Yeni qanun qüvvəyə mindi, bu halda məcburi köçkün statusu ləğv olunacaq

**"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara dəyişiklik təsdiqlənib.**

"Şərq" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı adıçəkilən qanunlara dəyişikləri imzalayıb.

İndiyədək məcburi köçkün əvvəl adətən yaşadığı yerə qayıtdıqda və ya əvvəlki yaşayış yerinin əvəzinə həmin regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edildikdə, eyni zamanda dövlətin xüsusi qərarı ilə müəyyənləşdirilmiş səviyyədə yaşayış yeri ilə təmin edildikdə statusunu itirir. Qanuna əsasən, vətəndaş qeyd edilən yaşayış yerlərindən imtina etdikdə də bu statusunu itirəcək.

### Eyni zamanda qanuna əsasən işğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşma Fondu yaradılacaq

Bu qanun qüvvəyə mindiyi tarixədək əvvəlki yaşayış yerinin əvəzinə işğaldan azad edilmiş ərazilərdə başqa yaşayış yeri ilə əvəzsiz qaydada təmin edilmiş məcburi köçkünlərin məcburi köçkün statusu bu Qanun qüvvəyə mindiyi tarixdən itirilir.

Yeni qanuna görə şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcək.

Eyni zamanda qanuna əsasən işğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşma Fondu yaradılacaq.

İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşdırma Fondunun yaşayış sahələri xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələrinin növləri sırasında olacaq. İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşdırma Fondunun yaşayış sahələri məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə daimi yaşayış sahələrinə köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi üçün nəzərdə tutulur.

İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşdırma Fondunun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək.

# Masada COP və Xəzər məsələləri

## Ceyhun Bayramov Rusiya Prezidentinin köməkçisi ilə görüşdə vacib mesajlar verdi



**23 iyul tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyası Prezidentinin köməkçisi, Prezidentin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Ruslan Edelgeriyevi qəbul edib.**

"Şərq" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.

Görüş zamanı, Azərbaycan ilə Rusiya arasında iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlıq, COP məsələləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq mövzular müzakirə olunub.

Nazir Ceyhun Bayramov COP-29 Sədrliyi çərçivəsində Azərbaycanın qazandığı təcrübə və əldə etdiyi nəticələr, ölkəmizin COP-31-in Sədrliyini həyata keçirəcək Avstraliya və ev sahibi Türkiyə ilə sıx əməkdaşlığı barədə məlumat verib.

Görüşdə Xəzər dənizi üzrə ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Bu çərçivədə Xəzər dənizi ilə bağlı yaradılmış ikitərəfli İşçi Qrupunun fəaliyyətinin intensivləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Xəzər dənizinin su ehtiyatlarının və unikal ekosisteminin qorunmasının vacibliyi qeyd edilərək, bu istiqamətdə, o cümlədən kənd təsərrüfatı sahəsində innovativ texnologiyaların tətbiqi və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Müharibənin taleyi cəbhədə həll olunacaq

## **Hasan Oktay:** "İstanbul prosesi yenidən gündəmə gəlməsə, Rusiya-Ukrayna sülhü çətin olacaq"



**Ukrayna-Rusiya arasındakı müharibə artıq 5-ci ilə yaxınlaşır. Hər iki xalq bərpası onilliklər tələb edən dəhşətli insan təlaftı ilə üz-üzə qalıb. Rəsmi məlumatlara görə, 2022-ci ildən indiyədək ölən rusiyalı hərbçilərinin sayı 230,000-dən çoxdur.**

Ukraynada isə ölüm sayı 100,000-150,000 arasındadır. Son 4 ildə vasitəçilərin böyük səylərlə qurduğu diplomatik təmaslar, tərəfləri bir araya gətirsə də, gözlənilən nəticəni verməyib. Müharibədə vahid cəbhə anlayışı tamamilə pozulub. Tərəflər bir qarış torpağı ələ keçirmək naminə mülki infrastrukturu belə hədəf almaqdan çəkinmirlər. Rusiyanın neft hasilatı azalıb. Ukrayna isə hava hücumundan müdafiə sistemini gücləndirmək üçün NATO və Qərbdən dəstək almağa çalışır. Avropa İttifaqı Rusiyaya qarşı 21-ci sanksiyalar paketi üzrə razılıq əldə edib. Sanksiya zərbəsi birbaşa, Rusiyanın maliyyə sisteminə, hərbi-sənaye kompleksinə və enerji sektoruna yönəlib. Ağırlaşan təzyiqlər fonunda, Moskvanın mövqeyində danışıqlara meyillilik müşahidə olunur. Bu gün ABŞ Dövlət Katibi Marko Rubio və Rusiya xarici işlər naziri Sergey Lavrov arasında baş tutan görüşdə, müharibənin başa çatdırılmasının vacibliyi vurğulanıb. Lavrov, Ukraynaya silah tədarükünün davam etdirilməsinin qəbuledilməz olduğunu bildirib. Onun sözlərinə görə, Rusiya müharibəni dayandırmaq üçün dialoqa hazırdır və Ankoric görüşündə verilən vədlərə sadiq qalır. Qeyd edək ki, ötən il Alyaskanın Ankoric şəhərində, Rusiya Prezidenti Vladimir Putin və ABŞ Prezidenti Donald Tramp razılaşma əldə ediblər. Lavrov bugünkü çıxışında məhz həmin razılaşmaya sadiq olduqlarını vurğulamağa çalışır.

**Mövzu ilə bağlı Qafqaz Strateji Araşdırmalar Mərkəzinin sədri, politoloq Hasan Oktay "Şərq"ə bildirib ki, mövcud hərbi-siyasi reallıqlar fonunda yaxın vaxtlarda Rusiya və Ukrayna arasında daimi atəşkəsə nail olmaq son dərəcə çətindir:** "Çünki tərəflərin müharibənin gələcək taleyi ilə bağlı planları köklü şəkildə fərqlənir. Son dövrlərdə Moskva tərəfindən tez-tez qeyd olunan Alyaskanın Ankoric şəhərindəki təmaslar tərəflərin hadisələri nə dərəcədə fərqli şərh etdiyini nümayiş etdirir. Moskva ilə Vaşinqtonun Ankoric təmaslarına dair yanaşmaları tərəflər arasındakı konseptual fikir ayrılıqlarını üzə çıxarır. Moskva Ankoricdə artıq müəyyən bir siyasi çərçivənin formalaşdığını qabardır və gələcək danışıqlar üçün məhz həmin görüşdəki tələbləri şərt qoşur. ABŞ tərəfi isə Marko Rubio vasitəsilə bu mövqeyi qətiyyətlə rədd edərək, ortada öhdəlik yaradan hər hansı sazişin olmadığını vurğulayır. Bu da onu göstərir ki, tərəflər hələ danışıqların ilkin nöqtəsində belə razılıq əldə edə bilməyiblər".

**Politoloqun sözlərinə görə, sülhün qarşısındakı ən böyük sədd tərəflərin bir-biri üçün qəbulolunmaz şərtlər irəli sürməsidir:** "Moskva Ukraynaya hərbi yardımın tam dayandırılmasını və işğal olunmuş torpaqların faktiki statu-kvosunun tanınmasını diktə edir. Kiyev isə suverenlik və ərazi bütövlüyü məsələsində "qırmızı xətlərindən" zərrə qədər də geri çəkilmir. Mövqelər bu qədər ziddiyyətli ikən yaxın gələcəkdə hər hansı siyasi həll gözləmək xülyadan başqa bir şey deyil. Müharibə iqtisadi müstəvidə də tərəfləri sıxmaqdadır. Rusiyaya tətbiq olunan kütləvi sanksiyalar və müdafiə xərcləri Moskvanı diplomatik variantları masa arxasında saxlamaq məcburiyyətində qoyur. Buna baxmayaraq, Kremlin hərbi məqsədlərindən rahatlıqla imtina etməyəcək. Ukrayna Qərb müttəfiqlərindən aldığı hərbi dəstək sayəsində müdafiə və əks-hücum imkanlarını artırmağa çalışır".

**H.Oktay qeyd edib ki, Zelenskinin əsas hədəfi danışıqlar masasına maksimum güclü hərbi mövqelərlə əyləşməkdir:**

"Çünki hərbi baxımdan üstün tərəf zəifə öz şərtlərini diktə etmək imkanını əldə edir. Rubio və Lavrovun son görüşü isə müharibəyə son qoymaq məqsədinə xidmət etmir. Sadəcə, diplomatik kanallarını açıq saxlamaq məqsədi daşıyır. Görüş faktiki olaraq mövqelərin qarşılıqlı şəkildə yenidən bəyan edilməsindən o tərəfə keçmədi. Moskva Ankoric çərçivəsini qabartmaqda davam etsə də, Vaşinqton bu iddiaları qətiyyətlə rədd edir. Buna baxmayaraq, açıq saxlanılan dialoq kanalları supergüclər arasında iplərin tamamilə qopmasının qarşısını alır. Önümüzdəki dövrdə, Ukrayna-Rusiya danışıqlarının yenidən canlanması cəbhədəki hərbi üstünlükdən, Qərbin Kiyevə dəstəyi saxlayıb-saxlamayacağından, Rusiya iqtisadiyyatının dözümlülüyündən və tərəflərin sərt şərtlərdən geri addım atmaq iradəsindən asılı olacaq. Reallıq odur ki, Rusiya-Ukrayna masasında indiyə qədər atılmış ən işlək addım məhz İstanbul prosesi olub".

**Aybəniz Səfərova**



# 1875-dən 2026-ya uzanan yol: Zərdabinin çırağı hələ də yanır

## Həsən bəy Zərdabinin məzarı önündə müqəddəs peşənin keçmişindən, bu günündən və sabahından danışıldı

**Təqvim 22 iyul 2026-cı il, saatın əqrəbləri isə təxminən günorta bir radələrini göstərir. Əllərimizdə al-qırmızı qərənfillərlə Fəxri xiyabanın girişindəyik. Hava istidir, ətrafda qəribə bir sakitlik hökm sürür. Bu sakitliyi isə ziyarətə gələn insanların asta addımları və pıçıltı ilə deyilən bayram təbrikləri pozur... Axı bu gün Milli Mətbuat Günüdür. Biz isə Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabini ziyarət etməyə gəlmişik. Digər tərəfdən də bu yol bizi təkcə ustadın məzarına aparmır, həm də mətbuat tariximizin başlanğıc nöqtəsinə, "Əkinçi"nin səhifələrinə, xalqın maariflənməsi uğrunda aparılan mübarizəyə aparır.**



Qocaman şərqçilərlə, gənc şərqçilər eyni cərgədə irəliləyirlər. Aramızda xeyli yaş fərqi var, amma məqsədimiz birdir - bu peşənin keçmişini xatırlamaq, bu günü dəyərləndirmək və gələcəyinə sahib çıxmaq...

Yol boyu qarşımıza müxtəlif media orqanlarının nümayəndələri çıxır. Bir-birimizi Milli Mətbuat Günü münasibətilə təbrik edirik. Hər kəsin üzündə xoş bir təbəssüm var. Bu gün sanki rəqabət yox, həmrəylik günüdür.

Addımladıqca "Şərq" qəzetinin baş redaktoru, müəllimim Akif Aşırlı söhbətə başlayır, bizi o dövrə, təxminən üç əsr öncəyə aparır...Həsən bəy Zərdabidən, "Əkinçi"dən, Azərbaycan mətbuatının keçdiyi keşməkeşli yoldan bəhs edir.

Düzünü desəm, bu söhbətləri ilk dəfə eşitmirəm. Akif müəllim auditoriyada da, redaksiyada da, səfərlərdə də hər fürsətdə yorulmadan mətbuat tariximizdən danışır, bizləri maarifləndirir. Anlayıram ki, elə buna görə "Şərq" adi redaksiya deyil. "Şərq" məktəbdir. Bura xəbərin yazılması, vicdanlılıq, obyektivliklə yanaşı bizlərə sözün əsl mənasında mətbuat tarixi keçir. Bir daha sevinirəm, nə yaxşı ki, yolum "Şərq"dən keçib...

Nəhayət, Həsən bəy Zərdabinin məzarı önünə çatırıq. Bir anlıq hamı susur...Axı sükut bəzən ən təsirli çıxışdan da güclü olur.

Əlimizdəki qərənfilləri ehtiramla məzarın üzərinə qoyuruq. Fatihə oxuyuruq. Hər kəs düşüncələrə dalır. Sanki hər birimiz öz içində Həsən bəy Zərdabi ilə söhbət edir, dövrün problemlərindən də, irəliləyişlərindən də danışır...

**Elə bu an gözlənilməz bir hadisə baş verir. Tam bu həzin sükutun ortasında Xiyabanın xadimələrindən biri - alnının təri, əlinin zəhməti ilə çörək qazanan sadə bir qadın bizə yaxınlaşır. Səmimi bir təbəssümlə üzümüzə baxıb deyir:** "Mətbuat gününüz mübarək! Arzu edirəm ki, hər zaman xoş xəbərlər verə, xoş xəbərlər eşidəsiniz..."

Bu sadə, amma dərin cümlə beynimdə ilişib qalır. Qadının müdrikliyinə, dünyagörüşünə heyran oluram. Bir jurnalist üçün bundan böyük, bundan mənalı arzunun ola bilməyəcəyini düşünürəm...

Çünki insanlar xəbərləri bizdən alırlar. Onlar səhər qəzeti açanda, saytı oxuyanda, televizora baxanda yaxşı xəbərlərlə qarşılaşmaq istəyirlər. Amma təəssüf ki, həyat həmişə xoş xəbərlərdən ibarət olmur. Jurnalistin işi həqiqəti yazmaqdır, bəzən acı olsa belə...

Yenə də müharibələrlə, ağrı-acılarla dolu olan bu dünyada həmin qadının diləyində böyük bir ümid hiss edirəm...

**Akif müəllim söhbətinə davam edir. Bu dəfə elə bir fakt deyir ki, ilk dəfə eşidirəm. Sən demə, Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın məzarı da onun yanında yerləşir. Təəccübümü gizlədə bilmirəm. Düşünürəm ki, mənim kimi bunu bilməyən çox adamlar var. Heyrətimi gizlədə bilməyib müəllimimə üz tuturam:** "Akif müəllim, bunu çox insan bilmir. Bura kiçik də olsa bir məlumat lövhəsi qoyulsa, necə böyük iş olar! Ziyarətçilər də bu böyük maarifçi ailənin tarixini öyrənərlər...

Ətrafı seyr etdikcə diqqətimi başqa bir məqam da çəkir. Fəxri xiyabanı xarici turistlər də ziyarət edirlər. Onlar sakitcə məzarların önündən keçir, şəkillərə baxır, adları oxumağa çalışırlar. Bu mənzərə məni sevindirir. Deməli, Azərbaycanın tarixi və görkəmli şəxsiyyətləri təkcə bizim üçün deyil, ölkəmizə gələn qonaqlar üçün də maraq doğurur.

Ziyarətin sonunda Akif müəllim üzünü bizə - gənc "Şərq"çilərə tutur.

**Səsi həmişəki kimi aram, amma bir o qədər də inamlıdır:**

- "Estafeti sizə ötürürəm. Ustadları heç vaxt unutmayın. Siz bizi də həvəsləndirin ki, belə ziyarətlər həmişə davam etsin".

Bu sözlər tövsiyə ilə yanaşı həm də bir etimaddır, mirasdır, məsuliyyətdir...

1875-ci ildə qucağı qalaq-qalaq "Əkinçi" qəzeti ilə dolu olan Zərdabinin heykəlinin qucağı bu gün güllərlə bəzənmişdi. Sanki hər bir gül "Əkinçi"yə, onun yaradıcısına və Azərbaycan milli mətbuatının təməlini qoyan böyük ustada ünvanlanan bir təşəkkür idi. Minnətdarlıq hissi ilə Fəxri xiyabandan ayrılırıq...

22 iyul bizə bir daha xatırladır ki, Həsən bəy Zərdabinin yandırdığı çıraq sönmür. Süni intellekt texnologiyalarının, rəqəmsal platformaların və onlayn medianın sürətlə inkişaf etdiyi bir dövrdə belə, Zərdabinin əsasını qoyduğu peşə - həqiqətə söykənən jurnalistika və qəzetçilik yaşayır, yaşamağa da davam edəcək. Çünki o çırağın işığını bu gün də vicdanlı jurnalistlər öz qələmləri, sözləri ilə yaşadırlar.

**Banuçiçək Kalbalıyeva**

# "Ermənilər itkin düşən yaxınlarını Ermənistanda axtarsınlar!"

**Asəf Quliyev:** "Həlak olan erməni hərbçilərinin bir qismi Ermənistan ərazisində dəfn olunub"



**İtkin düşmüş Ermənistan hərbçilərinin yaxınları hökumət binasının qarşısına toplaşaraq doğmalarının taleyi ilə bağlı konkret məlumat verilməsini tələb ediblər.**

Bu barədə Musavat.com Ermənistan KİV-lərinə istinadən məlumat yayıb. Bildirilir ki, itkin düşmüş hərbçilərdən birinin əmisi Arsen Qukasyan 1990-cı illərdən etibarən azərbaycanlıların dəfn yerləri barədə məlumata malik şəxslərin onların təşəbbüs qrupu ilə əlaqə saxlayaraq vahid məlumat bazasının yaradılmasına kömək edə biləcəyini deyib.

**Onun sözlərinə görə, onlar danışıqlar aparmaq üçün ağ bayraqla Həkəri çayına gəlməyə və eyni taleyi yaşayan azərbaycanlılarla əlaqə yaratmağa hazırdırlar:** "Biz itkin düşmüş yaxınlarımız barədə məlumat əldə etmək üçün bir-birimizə kömək etmək istəyirik. Artıq nə hökumətə, nə Avropaya, nə ABŞ-yə, nə də Rusiyaya ümid edirik. Bütün ümidimiz özümüzədir. Mümkün olan bütün vasitələrdən istifadə etməliyik".

**Müstəqil Jurnalistlərə Hüquqi və Texniki Yardım İctimai Birliyinin sədri, əslən Qarabağdan olan Asəf Quliyev "Şərq"ə açıqlamasında bildirib ki, bu həm Azərbaycan, həm də Ermənistan üçün olduqca ağrılı məsələdir:** "İtkin düşmüş şəxslərlə bağlı hər iki dövlətin müvafiq qurumları fəaliyyət göstərir. Əminliklə deyə bilərəm ki, Azərbaycanda bu sahə üzrə Dövlət Komissiyasının fəaliyyəti yüksək səviyyədə təşkil olunub. Ermənistan vətəndaşları Azərbaycan dövlətinə müraciət edəcəkləri təqdirdə, komissiya əlində olan məlumatları onlarla bölüşəcək.

Erməni hərbçilərinin aşkarlanmış cəsədlərinin Ermənistan tərəfinə təhvil verildiyinin dəfələrlə şahidi olmuşuq. Bundan sonra da hər hansı məlumat əldə edilərsə, tərəflə paylaşılacaq. Azərbaycan dövləti humanist yanaşmaya hər zaman önəm verir.

İtkin düşmüş, əsir və girov götürülmüş azərbaycanlılarla bağlı müəmmalı vəziyyət isə hələ də davam edir. Azərbaycanda təxminən 4 min nəfərin itkin düşməsi ilə bağlı məlumat var. Qarabağ azad edildikdən sonra onların bir qisminin cəsədləri kütləvi məzarlıqlarda aşkarlanıb. Bu proses hazırda da davam edir.

Taleyi naməlum qalan çoxsaylı insanlarımız var. Qarabağda məskunlaşma genişləndikcə yeni kütləvi məzarlıqların aşkarlanması da istisna deyil. Lakin Ermənistan tərəfinin bu məsələdə fəaliyyəti qənaətbəxş deyil. Onlar hələ də kütləvi məzarlıqların yerləri barədə Azərbaycan tərəfinə məlumat vermirlər. Çünki anlayırlar ki, belə məlumatların açıqlanması törədilmiş müharibə cinayətlərinin etirafı deməkdir.

Əslində bu cinayətlərin mövcudluğu məlumdur, sadəcə, qarşı tərəf bunu rəsmən etiraf etmək istəmir. Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri ilə görüşlərimiz zamanı da bu məsələ müzakirə olunub. Vətəndaş cəmiyyəti qruplarının yaradılması müsbət addımdır. Ancaq dövlət dəstəyi və siyasi iradə olmadan nəticə əldə etmək çətindir.

> **"Ermənistan vətəndaşları cavabı öz hakimiyyətlərindən tələb etməlidirlər"**

Azərbaycan tərəfində siyasi iradə mövcuddur, Dövlət Komissiyası fəaliyyət göstərir, tapılmış erməni hərbçilərinin cəsədləri qarşı tərəfə təhvil verilib. Ermənistan isə eyni yanaşmanı nümayiş etdirmir".

**A.Quliyev bildirib ki, bir neçə il əvvəl kütləvi məzarlıqlarla bağlı hesabat hazırlayarkən erməni mənbələri ilə əlaqə saxlayaraq Azərbaycanın Milli Qəhrəmanı, Silahlı Qüvvələrin ilk hərbi pilotu Vaqif Qurbanovun harada dəfn olunduğunu öyrənməyə çalışıblar:** "Lakin qarşı tərəf bununla bağlı heç bir məlumat vermədi. Harada dəfn edildiyini, məzarın yerini və koordinatlarını açıqlamadılar. Yəqin ki, bu məlumat onlarda var idi, sadəcə paylaşmaq istəmədilər.

Hazırda Ermənistanda siyasi müstəvidə gərginlik hökm sürdüyündən, müharibə cinayətlərində iştirak etmiş şəxslər belə məlumatların açıqlanmasına mane olurlar. Çünki bu, onların törətdikləri cinayətlərin üzə çıxmasına səbəb ola bilər".

**A.Quliyev qeyd edib ki, Ermənistan vətəndaşları itkin düşmüş yaxınlarını daha çox Ermənistan ərazisində axtarmalıdırlar:** "Müharibə zamanı həlak olmuş hərbçilərdən bəziləri Ermənistan ərazisində dəfn edilmiş ola bilər. Azərbaycan tərəfinin gizlədəcəyi hər hansı fakt yoxdur. Ermənistan vətəndaşları itkinlərinin taleyi və dəfn olunduqları yerlərlə bağlı məlumatı ilk növbədə öz hakimiyyətlərindən tələb etməlidirlər".

**Məlahət Rzayeva**



# Tramp İrana yeni hücumun anonsunu verdi

## Yaxın Şərq yenidən müharibənin astanasındadır

**ABŞ Prezidenti Donald Tramp İrana qarşı əvvəlki hərbi əməliyyatlardan daha genişmiqyaslı zərbələrin endirilməsi imkanını ciddi şəkildə nəzərdən keçirdiyini bildirib. Tramp bu barədə "Axios" nəşrinə müsahibəsində danışıb.**

ABŞ Prezidenti hələlik yekun qərar vermədiyini qeyd edib.

"Mən böyük bir hücum planlaşdırıram. Əvvəlkindən daha böyük. Qərar verməyə yaxınam. Hamımız buna hazırıq", - deyə Tramp bildirib.

Məlumata görə, söhbət İranda əsas döyüş əməliyyatlarının, o cümlədən "Epik qəzəb" əməliyyatı zamanı həyata keçirilən zərbələrdən daha genişmiqyaslı hərbi əməliyyatların yenidən başlanması ehtimalından gedir.

ABŞ Prezidenti Donald Trampın İrana qarşı əvvəlkindən daha genişmiqyaslı hərbi əməliyyat ehtimalını gündəmə gətirməsi Yaxın Şərqdə onsuz da kövrək olan təhlükəsizlik mühitini yenidən dünyanın əsas müzakirə mövzusuna çevirib. Trampın "böyük bir hücum planlaşdırıram" açıqlaması hələlik yekun qərarın verilmədiyini göstərsə də, Vaşinqtonun hərbi variantı aktiv şəkildə gündəmdə saxladığını nümayiş etdirir.

Son illər ABŞ-İran münasibətləri nüvə proqramı, raket sınaqları, regiondakı silahlı qruplar və iqtisadi sanksiyalar fonunda dəfələrlə gərgin mərhələdən keçib. Buna görə də Trampın son bəyanatı adi siyasi ritorikadan daha çox, Tehrana və beynəlxalq ictimaiyyətə verilmiş strateji mesaj kimi qiymətləndirilir.

Müşahidəçilərin fikrincə, Vaşinqton bu cür sərt bəyanatlarla İrana diplomatik və psixoloji təzyiq göstərməyə çalışır. Məqsəd Tehranı müəyyən güzəştlərə məcbur etmək, eyni zamanda ABŞ-nin regiondakı müttəfiqlərinə təhlükəsizlik zəmanətinin davam etdiyini nümayiş etdirməkdir.

Lakin mümkün hərbi əməliyyatların yenidən başlaması təkcə ABŞ və İran arasında qarşıdurma olmayacaq. Belə bir senari bütün Yaxın Şərqdə gərginliyi artıra, enerji bazarlarında qeyri-sabitlik yarada və neft qiymətlərinin yenidən yüksəlməsinə səbəb ola bilər. Xüsusilə Hörmüz boğazında yaranacaq hər hansı təhlükə qlobal enerji təchizatına birbaşa təsir göstərə bilər.

Ekspertlər hesab edirlər ki, Trampın açıqlaması ABŞ-nin daxili siyasi gündəmi ilə də əlaqəli ola bilər. Xarici siyasətdə sərt mövqe nümayiş etdirmək Ağ Evin həm ölkə daxilində, həm də beynəlxalq arenada güc nümayişi strategiyasının tərkib hissəsi kimi qiymətləndirilir.

Digər mühüm məqam isə İranın mümkün reaksiyasıdır. Tehran indiyədək hərbi təzyiqə qarşı cavab verəcəyini dəfələrlə bəyan edib. Bu isə qarşılıqlı addımların regionda daha genişmiqyaslı qarşıdurmaya çevrilməsi riskini artırır.

Hazırda yekun qərarın verilmədiyi bildirilsə də, Vaşinqton və Tehran arasında ritorikanın sərtləşməsi göstərir ki, diplomatik proseslər istənilən an hərbi mərhələ ilə əvəz oluna bilər. Bu səbəbdən qarşıdakı günlərdə ABŞ administrasiyasının verəcəyi qərarlar yalnız iki ölkənin münasibətlərinə deyil, bütövlükdə Yaxın Şərqin təhlükəsizlik arxitekturasına və dünya iqtisadiyyatına təsir göstərə biləcək əsas amillərdən biri kimi qiymətləndirilir.

**Yusif Nəzərli**

# Cəlilabadda qədim dövrə aid maddi-mədəniyyət nümunələri aşkarlanıb

**Cəlilabad rayonunda abadlıq işləri aparılarkən qədim dövrə aid maddi-mədəniyyət nümunələri aşkarlanıb.**



APA-nın cənub bürosunun verdiyi xəbərə görə, maddi-mədəniyyət nümunələri rayon ərazisində Narbağı adlanan sahədə park salınması zamanı üzə çıxıb.

Ərazidə aparılan qazıntılar zamanı qədim dövrə aid dörd ədəd təsərrüfat küpü və digər maddi-mədəniyyət nümunələri tapılıb.

Tapıntılarla bağlı Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu Vəfa Mahmudovaya məlumat verilib. Məlumat əsasında institutun nümayəndəsi əraziyə ezam olunub və burada tədqiqat işlərinə başlanılıb.

Aşkarlanan maddi-mədəniyyət nümunələrinin Azərbaycan tarixinin qədim dövrləri ilə bağlı yeni və əhəmiyyətli məlumatlar ortaya çıxara biləcəyi ehtimal olunur.




# Tıxaclara qarşı yeni həll

## Təcili yardım motosikletləri Bakıda xidmətə başlayır

**Dünyanın bir sıra ölkələrində uğurla tətbiq olunan ”Ambucycle” modeli artıq Azərbaycanda da istifadəyə verilir. Tıxaclı şəhər şəraitində təcili tibbi yardımın hadisə yerinə daha qısa müddətdə çatmasını hədəfləyən bu xidmət ənənəvi ambulans sistemini tamamlayan yeni yanaşma kimi qiymətləndirilir. Xüsusilə həyati təhlükə yaradan hallarda ilk tibbi müdaxilənin vaxtında göstərilməsi baxımından modelin təcili tibbi yardım xidmətinin operativliyinə mühüm töhfə verəcəyi gözlənilir.**

Qeyd edək ki, Təcili tibbi yardım xidmətinin operativliyinin artırılması, xüsusilə nəqliyyat sıxlığının müşahidə olunduğu ərazilərdə və pik saatlarda vətəndaşlara daha çevik ilkin tibbi yardımın göstərilməsi məqsədilə TƏBİB tərəfindən yeni “Ambucycle” xidmət modelinin tətbiqinə başlanılıb. Ölkədə ilk dəfə olaraq motosikletlərin təcili tibbi yardım xidmətinə cəlb olunduğu bu model hadisə yerinə daha qısa müddətdə çatmağı və həyati əhəmiyyət daşıyan ilk dəqiqələrdə tibbi müdaxilənin göstərilməsini hədəfləyir. Xidmət modeli ilkin mərhələdə pilot olaraq Bakı şəhərində tətbiq olunacaq.

**TƏBİB-in Mətbuat Xidmətindən ”Şərq”in sorğusuna cavab olaraq bildirilib ki, “Ambucycle” zəruri tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş, xüsusi hazırlıq keçmiş feldşer tərəfindən idarə olunur:** “Motosiklet briqadası hadisə yerində ürək-ağciyər reanimasiyası (BLS və ALS), ürəyin qapalı masajı, defibrilyasiya, ağrının aradan qaldırılması, sınıqlar zamanı immobilizasiya və digər təxirəsalınmaz tibbi müdaxilələri həyata keçirmək imkanına malikdir. Zərurət yarandıqda isə pasiyentin vəziyyətinə uyğun olaraq tamtəchizatlı təcili tibbi yardım briqadasının hadisə yerinə cəlb olunmasını koordinasiya edir. Feldşerlər İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Tədris-Simulyasiya və Akkreditasiya Mərkəzində, Yeni Klinikada, eləcə də Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzində müvafiq nəzəri və praktiki təlimlərdən keçiblər”.

### Ambulans gələnə qədər həyatı motosiklet briqadası xilas edəcək

**- “Ambucycle” xidməti ”Ambulansı” tam şəkildə əvəz edə bilir, yoxsa onun əsas funksiyası ambulans hadisə yerinə çatana qədər ilkin tibbi yardımı göstərməkdir?**

- Motosiklet briqadası hadisə yerində ürək-ağciyər reanimasiyası (BLS və ALS), ürəyin qapalı masajı, defibrilyasiya, ağrının aradan qaldırılması, sınıqlar zamanı immobilizasiya və digər təxirəsalınmaz tibbi müdaxilələri həyata keçirmək imkanına malikdir. Zərurət yarandıqda isə pasiyentin vəziyyətinə uyğun olaraq tamtəchizatlı təcili tibbi yardım briqadasının hadisə yerinə cəlb olunmasını koordinasiya edir. Bu xidmət modeli İsrail, Böyük Britaniya kimi ölkələrdə uğurla tətbiq olunur və təcili tibbi yardımın hadisə yerinə çatma müddətinin azaldılması, kritik hallarda erkən tibbi müdaxilənin təmin edilməsi baxımından öz effektivliyini sübut edib. “Ambucycle” xidmət modelinin tətbiqi təcili tibbi yardım xidmətinin əlçatanlığının və operativliyinin artırılmasına xidmət edəcək. Pilot mərhələnin nəticələri qiymətləndirildikdən sonra xidmət modelinin tətbiq coğrafiyasının genişləndirilməsi nəzərdən keçiriləcək.

**- “Ambucycle” xidmətinə çağırışlar necə yönləndiriləcək? Dispetçer hansı meyarlar əsasında qərar verəcək ki, hadisə yerinə motosiklet briqadası göndərilsin, yoxsa birbaşa təcili tibbi yardım avtomobili?**

- Bu proses çağrı mərkəzində tətbiq olunan tibbi triaj və hadisələrin çeşidlənməsi alqoritmləri əsasında həyata keçiriləcək. ”103” xidmətinə daxil olan hər bir çağırış dispetçer tərəfindən hadisənin xarakterinə, təcililik səviyyəsinə və məkan xüsusiyyətlərinə uyğun olaraq qiymətləndiriləcək.

”Ambucycle” əsasən nəqliyyat sıxlığının yüksək olduğu ərazilərdə, xüsusilə yol-nəqliyyat hadisələrinə operativ şəkildə çatmaq üçün nəzərdə tutulub.

“Ambucysle” ənənəvi təcili yardım avtomobilini əvəz etmir, onu tamamlayır. Məqsəd ilkin tibbi yardımı mümkün qədər qısa müddətdə göstərmək və zərurət olduqda, paralel olaraq təcili tibbi yardım avtomobilinin hadisə yerinə cəlbini koordinasiya etməkdir. Beləliklə, tamtəchizatlı təcili tibbi yardım avtomobili hadisə yerinə çatana qədər “Ambucycle” ilk dəqiqələrdən maksimum səmərəli istifadə edərək ilkin tibbi yardımı göstərəcək.

**- Son zamanlar motosiklet istifadəçilərinin iştirakı ilə baş verən yol qəzaları ölkədə ciddi müzakirə olunur. Bu modelin tətbiqi zamanı yarana biləcək risklərin minimuma endirilməsi üçün hansı tədbirlər görülüb?**

- ”Ambucycle” heyətində fəaliyyət göstərəcək feldşerlər məhz bu xidmət modeli üçün əlavə olaraq, xüsusi hazırlıq keçiblər. Onlar tibbi bilik və bacarıqlara, həmçinin təhlükəsiz motosiklet idarəetməsi üzrə müvafiq sürücülük vəsiqəsinə malikdirlər. Bundan əlavə, sürücü-feldşerlər qoruyucu geyim və fərdi mühafizə vasitələri ilə təmin olunublar. Motosikletlər isə operativ nəqliyyat vasitəsi kimi sayrışan işıqlarla təchiz edilib.

**Şeymən Bayramova**

# "Yeni Müsavat"ın tarixi missiyası vurğulandı

## Mətbuat Şurasında Rauf Arifoğlunun 60 illik yubileyi ilə bağlı toplantı keçirilib






**Azərbaycan Mətbuat Şurasında Şuranın İdarə Heyətinin üzvü, “Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlunun 60 illik yubileyinə həsr olunmuş toplantı keçirilib.**

Bu barədə ”Şərq”ə Mətbuat Şurasından məlumat verilib.

**Tədbiri giriş sözü ilə açan MŞ sədri Rəşad Məcid bildirib ki, Rauf Arifoğlu Azərbaycan cəmiyyətinin nəzərində ömrünü jurnalistikaya, ictimai-siyasi fəaliyyətə həsr etmiş həmkar, qayğıkeş rəhbər və bacarıqlı media idarəçisidir:** ”Rauf Arifoğlu, eyni zamanda, jurnalistika naminə hər cür fədakarlığa qatlaşmağın, azad sözün imkanlarını cəmiyyətin inkişafı naminə səfərbər etməyin nümunəsidir. Rauf Arifoğlunun ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində vüsət almış milli azadlıq hərəkatı və müstəqillik yolunda oynadığı rolu xarakterizə edən cəhətlərdən biri də mücadiləyə informasiya dəstəyini qazandırması olub. Bu mənada “Yeni Müsavat” yubilyarın şah əsəri, Azərbaycanın ictimai həyatına verdiyi töhfədir. “Yeni Müsavat” müasir Azərbaycanda azad sözün ilk qaranquşlarından olmaqla yanaşı, ümumən, ölkənin odövrkü həyatının fikir katalizatoruna çevrilməyi bacardı. Belə bir yüksək status nəşrin inkişaf yolunu, taleyini müəyyənləşdirdi. O yol ki, Rauf Arifoğlunun 60 illik yubileyinin mükafatıdır. O yol ki, hazırda “Yeni Müsavat”ı ölkənin ən populyar media orqanına çevirib və bu media orqanı müasir dövrün tələb və çağırışlarına adekvat fəaliyyət göstərməklə, təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da populyardır”.

Toplantıda çıxış edənlər Rauf Arifoğlunun çağdaş mətbuatımızın yaranmasında böyük xidmətləri ilə seçildiyini deyiblər.

Çıxışçılar Rauf Arifoğlunun Prezident İlham Əliyev tərəfindən 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltifini Azərbaycan dövlətinin həm də mediaya həssas münasibətinin nəticəsi olaraq qiymətləndirib, ən xoş arzu və diləklərini ifadə edib, təbriklərini çatdırıblar.

Sonda çıxış edən Rauf Arifoğlu toplantı iştirakçılarına təşəkkürünü bildirib.

**Qeyd edək ki, toplantıda Milli Məclisin əməkdaşı Əkbər Qoşalı qurumun Mədəniyyət Komitəsinin sədri Fazil Mustafanın yubilyara ünvanladığı təbrik məktubunu səsləndirib.**

# İran rejimi daxildən dağılma mərhələsinə daxil olub

## Sadiq İsabəyli: ”Möttəkinin ABŞ və İsraillə bağlı açıqlamaları hüquqi deyil, siyasi şoudur”

**İranın keçmiş xarici işlər naziri və hazırda parlamentdə təmsil olunan Manuçöhr Möttəkinin son açıqlamaları beynəlxalq ictimaiyyətdə müzakirələrə səbəb olub. O, ABŞ Prezidenti Donald Tramp və İsrailin Baş naziri Benyamin Netanyahu ilə bağlı İran məhkəmə hakimiyyətinin addım atmalı olduğunu bildirib. Qeyd edib ki, əgər onlar məhkəməyə gəlməsələr, onlara qiyabi qisas hökmü çıxarılmalıdır.**

Onun sözlərinə görə, beynəlxalq kanallar vasitəsilə Ağ Evə müraciət edilib. Müraciətin qəbul edildiyini təsdiqləyən bildirişlər İranın məhkəmə hakimiyyətinə geri qaytarılıb. Möttəki, həmçinin Tramp və Netanyahunun İranın keçmiş ali rəhbəri Əli Xameneinin öldürülməsindəki rollarını etiraf etdiklərini iddia edib.

**“Savalan” Araşdırmalar Mərkəzinin rəhbəri, iranlı siyasi şərhçi, GAMAC İdarə Heyətinin üzvü Sadiq İsabəyli ”Şərq”ə Manuçöhr Möttəkinin iddialarının əsas məqsədindən danışıb:** ”Manuçöhr Möttəki son aylarda müxtəlif bəyanatlarla çıxış edir. İran mediasında səsləndirdiyi bu son açıqlama da daha çox siyasi bəyanat təsiri bağışlayır. Çünki bunun hüquqi baxımdan hər hansı legitimliyi yoxdur.

Hər halda, o, İran parlamentinin deputatı olmuş, keçmiş xarici işlər naziridir və beynəlxalq hüquq sistemini yaxşı bilməlidir. Amma əgər bütün bu bilgilərinə rəğmən İran mediasında bu şəkildə çağırışlar edirsə, bu, daha çox daxili auditoriyaya yönəlmiş siyasi mesaj kimi görünür. Məqsəd İran rejiminin guya Əli Xamenei və digərlərinin qisasını, qiyabi olsa belə, alacağını nümayiş etdirmək və bunu daxili hüquq sistemi əsasında həyata keçirəcəkləri görüntüsünü yaratmaqdır.

Lakin bunun nə ABŞ prezidentinin, nə də İsrail rəhbərliyinin taleyinə hüquqi təsiri var. Beynəlxalq hüquq baxımından bir dövlətin məhkəməsinin başqa dövlətlərin fəaliyyətdə olan yüksək vəzifəli şəxsləri barədə qərar çıxarması həmin şəxslərin həmin məhkəmənin hüquqi yurisdiksiyasına tabe olduqları anlamına gəlmir.

Əgər Manuçöhr Möttəki bunu biləbilə belə açıqlamalar verirsə, deməli, bu, hüquqi qərardan daha çox simvolik və siyasi xarakter daşıyır. Mahiyyəti də bundan ibarətdir ki, ölkə daxilində İranın Qərbə qarşı bütün istiqamətlərdə mübarizə aparmağa qadir olduğu görüntüsü yaradılsın və bu mövzu mediada gündəmdə saxlanılsın”.



**Analitik Manuçöhrün əvvəlki çıxışlarına da diqqət çəkib:** ”Manuçöhr Möttəki deyir ki, Körfəz ölkələrinə qarşı işğal siyasəti apara, ora hərbi qüvvələr göndərə, oradakı Amerika əsgərlərini əsir götürüb İrana gətirə bilərlər. Digər tərəfdən, Səudiyyə Ərəbistanını, Birləşmiş Ərəb Əmirliklərini, Küveyti, hətta Yəməni belə təhdid edərək onları yerlə-yeksan edəcəklərini bildirirlər.

Keçən günlərdə iştirak etdiyi beynəlxalq simpoziumda da Manuçöhr Möttəki həm Bəhreyn rəsmilərinə, həm də digər kiçik ərəb dövlətlərinin nümayəndələrinə qarşı kobud davrandı. O, hətta ”Bəhreynin torpaqlarını torbalara doldurub gətirəcəyik” ifadəsini işlətdi. Bu ifadənin farsca mənası isə əslində, Bəhreyni işğal edəcəkləri anlamını verir.

Yəni onlar beynəlxalq hüquqa və beynəlxalq münasibətlər sisteminə söykənməyən açıqlamalar verirlər. Eyni zamanda iddia edirlər ki, nüvə fəaliyyətləri beynəlxalq hüquq çərçivəsində həyata keçirilir, uzunmənzilli raketləri heç bir qonşu və ya region dövləti üçün təhdid deyil. Müxtəlif proksi qruplardan istifadə edir, terror qruplaşmaları yaradır, sonra isə iddia edirlər ki, həmin qruplar müstəqil fəaliyyət göstərirlər. Halbuki bütün dünya bilir ki, bölgədə həmin terror şəbəkələrinin yaradılmasını, formalaşdırılmasını, silahlandırılmasını və maliyyələşdirilməsini İranın mövcud hakimiyyəti həyata keçirir. Onlar özləri də etiraf edirlər ki, ”müqavimət qüvvələri” adlandırdıqları bu qruplar İranın milli təhlükəsizliyinin təmin olunmasına xidmət edir”.

**Müsahibimiz bunun reallıqdan tamamilə uzaq olduğunu deyib:** ”Nüvə silahı əldə etmək üçün gizli fəaliyyət göstərir. Bölgədə terror şəbəkələri başqa dövlətlərə qarşı təhdid vasitəsi kimi istifadə olunur. Uzunmənzilli raketlər qonşu və region dövlətlərinə yönəldilir. Bütün bunlar göstərir ki, İran hakimiyyəti nəinki beynəlxalq hüquq sistemini qəbul edir, üstəlik, bu təhdidlər vasitəsilə həm region, həm də qlobal dövlətlərdən güzəştlər əldə etməyə çalışır.

İndi isə görürlər ki, beynəlxalq güc qarşısında bu zorakı məntiq işləmir. Həm qonşu dövlətlər, həm region ölkələri, həm də qlobal güclər artıq onlara qarşı daha ciddi mövqe sergiləyirlər.

Ona görə də bu kimi sərsəm bəyanatlarla göstərməyə çalışırlar ki, İran rejimi guya supergüc olan ABŞ-nin və bölgəsəl güc olan İsrailin siyasi rəhbərləri haqqında məhkəmə qərarı çıxaracaq və onlardan qisas alacaq.

Bu, siyasi baxımdan mənasız bəyanatdır. Bu, İranın ABŞ və İsrailə qarşı sərt ritorikasının davamıdır. Hüquqi baxımdan isə belə qiyabi hökmün beynəlxalq icra mexanizmi olduqca məhduddur və əsasən simvolik xarakter daşıyır. Heç kim də buna ciddi əhəmiyyət vermir”.

**S.İsabəyli İran rejiminin daxilində ciddi çöküş yaşandığını bildirib:** ”Ölkə daxilində siyasi qarşıdurmalar son həddə çatıb. İnsanların sosial-iqtisadi vəziyyəti getdikcə ağırlaşır, su, elektrik və ərzaq təminatı ilə bağlı ciddi problemlər yaşanır. Hökumət bunların həlli istiqamətində effektiv addımlar ata bilmir.

Bütün bu problemlərdən diqqəti yayındırmaq üçün rejim və ona mənsub şəxslər, o cümlədən Manuçöhr Möttəki bu cür siyasi bəyanatlarla gündəmi dəyişməyə çalışırlar ki, həm insanlar, həm də beynəlxalq ictimaiyyət ölkə daxilində baş verən proseslərin mahiyyətini tam görə bilməsin.

Amma faktlar göstərir ki, rejimin ideoloji və siyasi mahiyyəti artıq bütün dünyaya, eləcə də region dövlətlərinə



bəllidir. Xüsusilə Körfəz ölkələri və ərəb dövlətləri də anlayıblar ki, qonşuluqlarında yerləşən təhdidkar siyasəti əvvəlki üsullarla idarə etmək mümkün deyil. Təsadüfi deyil ki, həmin ölkələrin rəhbərləri də artıq etiraf edirlər ki, İranın bu təhdid siyasətini nəzarətdə saxlamaq cəhdləri iflasa uğrayıb.

Bu kimi açıqlamalar nə qonşu dövlətləri, nə ABŞ-ni, nə də İsraili qorxuda bilər. Sadəcə olaraq, rejim düşdüyü ağır vəziyyətdən çıxmaq üçün çabalayır və daxili auditoriyanı sakitləşdirməyə çalışır ki, guya hələ də kifayət qədər hərbi və siyasi gücə malikdir, hətta supergüc olan ABŞ-yə qarşı belə”.

**Analitik qeyd edib ki, bu cür açıqlamalar İran vətəndaşlarının özləri üçün də gülüş mövzusuna çevrilir:** ”Belə bəyanatlar veriləndə insanlar sosial mediada onları lağa qoyur, müxtəlif formada paylaşırlar. Manuçöhr Möttəki də bu baxımdan daxildə gülüş obyektinə çevriləcək. İnsanlar bu cür sərsəm bəyanatlara inanmırlar. Bilirlər ki, bu rejim həm öz vətəndaşlarına, həm region dövlətlərinə, həm də beynəlxalq ictimaiyyətə qarşı sərt və repressiv siyasət yürüdür.

Son müharibə günlərində bütün çətinliklərə baxmayaraq, İran vətəndaşlarının böyük hissəsi bu rejimin sona çatmasının tərəfdarı idi. Rejim təbliğat vasitəsilə milyonlarla tərəfdarının olduğunu göstərməyə çalışsa da, gerçəklik bunun əksini göstərir. Hazırda onların əlində maliyyə, media və silah olduğu üçün özlərini güclü göstərməyə çalışırlar.

Ancaq Manuçöhr Möttəkinin bu kimi sərsəm bəyanatları onu göstərir ki, rejim ciddi böhran yaşayır, daxildən dağılma mərhələsinə daxil olub. Yaxın gələcəkdə bunun nəticələrinin şahidi olacağıq”.

**Banuçiçək Kalbalıyeva**



# Azərbaycana turist axını zəifləyir

## Hər şey Bakıda başlayıb Bakıda bitir, ən varlı turistin dalınca qaçırıq

**Turizm sektoru bu ilin ilk yarısını azalan göstəricilərlə başa vurub. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər göstərir ki, ötən ilin eyni dövrü ilə müqayisədə həm Azərbaycana gələn xarici vətəndaşların, həm də xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayında azalma qeydə alınıb.**

Məlumata görə, ilin I yarısında Azərbaycana 189 ölkədən 1 milyon 92,6 min nəfər və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Ölkəmizə gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 71,1 faizi hava, 27,5 faizi dəmir yolu və avtomobil, 1,4 faizi isə dəniz nəqliyyatından istifadə edib.

Hesabat dövründə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı 5,1 faiz azalaraq 937,4 min nəfər olub. Yanvar-iyun aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının 69,8 faizi hava, 28,1 faizi dəmir yolu və avtomobil, 2,1 faizi isə dəniz nəqliyyatından istifadə edib.

**Mövcud statistikanı ”Şərq”ə şərh edən iqtisadçı Xalid Kərimli bildirib ki, ilin ilk yarısında həm ölkəyə gələn turistlərin, həm də xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayının azalmasına bir neçə amil təsir göstərib.**

**Onun sözlərinə görə, quru sərhədlərinin uzun müddətdir bağlı qalması Azərbaycanın turizm imicinə mənfi təsir göstərən əsas amillərdən biridir:** ”Quru sərhədlərinin uzun müddət bağlı saxlanılması xarici turistlərdə müəyyən tərəddüd yaradır. Bu, təkcə quru sərhədindən istifadə edən turistlərə aid deyil. Hava yolu ilə səyahət etməyi planlaşdıran xarici vətəndaşlar da ölkə haqqında məlumat toplayarkən sərhədlərin bağlı olduğunu görür və təhlükəsizliklə bağlı risklərin mövcudluğuna işarə kimi qəbul edə bilirlər. Çünki hər hansı dövlətin sərhədlərini uzun müddət bağlı saxlaması xaricdən baxıldıqda müəyyən təhlükəsizlik narahatlıqları ilə əlaqələndirilir. Bizim ölkəmiz də, maşallah, 6 ildir sərhədi dayanmadan bağlayır. Bu isə ölkəyə səfər etmək istəyənlərin qərarına mənfi təsir göstərir və Azərbaycanın turizm cəlbediciliyini azaldır”.

**İqtisadçı bildirib ki, turist axınına təsir edən digər mühüm səbəb regionda yaşanan geosiyasi gərginlikdir:** “Yaxın Şərqdə və İranda baş verən hadisələr Azərbaycanın yerləşdiyi regionun təhlükəsizlik baxımından riskli qəbul edilməsinə səbəb olub. Xüsusilə, İranın buraxdığı dronlardan birinin Naxçıvan ərazisinə düşməsi kimi insidentlər də regionun təhlükəsizlik baxımından riskli qəbul olunmasına səbəb olub. Azərbaycanın İranla həmsərhəd ölkə olması xarici turistlərdə əlavə narahatlıq yaradıb. Xarici vətəndaşlar regiona səfər planlarını təxirə salır və ya alternativ istiqamətlər seçirlər. Bu, həm ölkəyə gələn turistlərin, həm də xaricə səfər edən Azərbaycan vətəndaşlarının sayında azalmaya səbəb olub”.

### İqtisadçılar sərhədlərdən tutmuş bahalı uçuşlara qədər bütün səbəbləri sadaladı

**X.Kərimlinin sözlərinə görə, turist axınına mənfi təsir göstərən digər mühüm amil Yaxın Şərqdəki gərginliyin nəqliyyat xərclərini artırmasıdır:** “Regional böhran aviasiya sektoruna da təsirsiz ötüşməyib. Regional gərginlik fonunda neft və yanacaq qiymətlərinin yüksəlməsi, eləcə də aviabiletlərin bahalaşması səyahət xərclərini artırıb. Nəticədə həm Azərbaycana gəlmək, həm də ölkədən xaricə səfər etmək əvvəlki dövrlə müqayisədə daha baha başa gəlir ki, bu da turist axınına birbaşa təsir göstərən amillərdəndir”.

“Yaxın Şərqdə yerləşən əsas tranzit hava limanlarının fəaliyyətində yaranan məhdudiyyətlər də beynəlxalq səyahətlərə mənfi təsir göstərib. Müharibə Dubay, Əbu-Dabi və Doha kimi beynəlxalq tranzit hava limanlarının fəaliyyətinə də təsir etdi. Bu hava limanları Asiya və digər istiqamətlərə uçuşlar üçün əsas aktarma mərkəzləri olduğundan, hava məkanlarının bağlanması və bəzi reyslərin ləğvi səyahət marşrutlarını çətinləşdirdi. Nəticədə uçuşlar həm daha uzun çəkdi, həm də aviabiletlərin qiyməti əhəmiyyətli dərəcədə artdı. Bu amillər başqa istiqamətlərə səfər edənlərin sayının azalmasına da təsir göstərdi”- deyə X.Kərimli əlavə edib.

**İqtisadçı hesab edir ki, statistikadakı geriləmənin səbəbləri yalnız regional hadisələrlə məhdudlaşmır. Onun fikrincə, Azərbaycanın turizm potensialının daha səmərəli tanıdılması və bu sahənin inkişafı istiqamətində görülən işlərin kifayət qədər olmaması da turist axınının azalmasına təsir göstərir:** “Mövcud vəziyyət göstərir ki, bu sahədə görülən işlər arzuolunan nəticəni vermir. Nəticədə Azərbaycan hələ də regionun aparıcı turizm istiqamətlərindən birinə çevrilə bilməyib. Eyni zamanda beynəlxalq tədbirlərin sayı və miqyası da turist axınına birbaşa təsir göstərən amillərdəndir. Beynəlxalq forumlar, konfranslar və digər irimiqyaslı tədbirlər ölkəyə xarici qonaqların cəlb olunmasında mühüm rol oynayır. Belə tədbirlərin sayının bir il daha çox, digər il isə daha az olması turist statistikasında da özünü göstərir. Bütün bu amillər birlikdə həm ölkəyə gələn, həm də xaricə səfər edənlərin sayında müşahidə olunan azalmanı şərtləndirib”.

**İqtisadçı Rauf Qarayev ”Şərq”ə açıqlamasında bildirib ki, ölkədə xidmət səviyyəsi ürəkaçan deyil. Üstəlik, təyyarə biletlərinin qiymətləri də yüksəkdir:**

- Turizm sektorunda artıma nail olmaq istəyiriksə, təyyarə biletlərinin qiymətləri endirilməlidir. Çünki quru sərhədlər bağlıdırsa, turistlərin ölkəyə gəlişi üçün hava nəqliyyatında daha əlverişli imkanlar yaradılmalıdır. Bundan əlavə, turistlərə eyni marşrutlar təqdim edilməməlidir. Müxtəlif istiqamətlər üzrə marşrutlar hazırlanmalı, həmin bölgələrdə hotellərin sayı artırılmalıdır. Turistlər eyni mənzərəni görüb, bahalıqla qarşılaşıb ölkədən ayrılmamalıdırlar. Əks halda, onlar bir daha Azərbaycana gəlməyəcəklər. Bizdə demək olar ki, hər şey Bakıdan başlayır və Bakıda bitir. Halbuki, bu, belə olmamalıdır. Turların əksəriyyətinin başlanğıcı və sonu Bakıdır.

**İqtisadçı bildirib ki, turizm sektorunun inkişafı üçün hələ çox iş görülməlidir:**

- Turistlərin cəlb edilməsində vacib məqamlardan biri də təbliğat və tanıtım kampaniyalarıdır. Bu sahədə hansı səviyyədəyik? Azərbaycan hansı ölkələrdə turizm imkanlarını tanıdır? Ola bilsin ki, ən çox təbliğat ərəb ölkələrində aparılır. Lakin onun da effektivliyi dəqiq məlum deyil. Turistlərin cəlb edilməsi effektiv marketinq, inkişaf etmiş infrastruktur və unikal yerli təcrübələrin təqdim olunmasını tələb edir. Rəqəmsal marketinq, fərdiləşdirilmiş xidmət paketləri və yerli mədəniyyətin ön plana çıxarılması potensial turistlərin sayını əhəmiyyətli dərəcədə artıra bilər.

Bundan başqa, bölgələrdə xarici dil biliklərinin səviyyəsi də vacib məsələdir. Hər hansı bir sakin tərcüməçinin köməyi olmadan xarici turistə yaşadığı ərazinin flora və faunası haqqında sərbəst məlumat verə bilirmi? Turistlərin hər birinin büdcəsi və xərcləmə imkanları fərqlidir. Bizdə isə daha çox varlı turistlərin cəlb olunmasına üstünlük verilir. Əlbəttə, varlı turistlərin gəlməsi yaxşıdır. Amma onların sayı nə qədər olacaq? Belə turist ölkədə maksimum iki gün qalacaq və ümumi vəziyyətlə tanış olub gedəcək. Turisti ölkəyə cəlb etməklə yanaşı, onu burada daha uzun müddət saxlaya biləcək maraqlı məkanlar, marşrutlar və cəlbedici təkliflər də yaradılmalıdır. Əks halda, turist iki gün ərzində avtomobillə ölkəni gəzib tərk edəcək.

**Şəymən Bayramova, Mələhət Rzayeva**

# Elektron diplom dövrü başlayır

## Təhsil eksperti risklər və üstünlüklərdən danışdı



**Azərbaycanda ali təhsil müəssisələrində məzunlara verilən diplomların elektronlaşdırılması tələbələr arasında narahatlığa səbəb olub. Müasir dövrdə digər ölkələrin inkişaf trayektoriyası ilə uzlaşmaq üçün rəqəmsallaşmaya keçid sürətlənsə də, bu proses kibertəhlükəsizlik, şəxsi məlumatların qorunması və texniki dayanıqlılıq baxımından müəyyən riskləri də özü ilə gətirir.** Bu səbəbdən bəzi tələbələr elektron diplom sisteminə tam etibar etmir. Əsas narahatlıq isə bazadakı akademik məlumatların kiberhücum və ya texniki nasazlıq səbəbindən silinməsi, yaxud tamamilə əlçatmaz olması ehtimalı ilə bağlıdır. İşin psixoloji tərəfi də var. Təxminən 35 ildir ki, məzunlar universiteti bitirdikdən sonra zəhmət və uğurlarının rəmzi olan diplomu əllərində tutaraq şəkil çəkdirir, xoş anları ailələri ilə bölüşür və illərlə çəkilən əziyyətin bəhrəsini məhz həmin sənəddə görürlər. Buna görə də kağız diplom bir çoxları üçün xatirə və qürur simvoludur.

Bəs gənclər arasında yaranan bu təşviş nə dərəcədə əsaslıdır?

**Mövzu ilə bağlı təhsil eksperti Əmrah Həsənli ”Şərq”ə bildirib ki, elektron diplom sisteminə keçid, əslində, dünyada illərdir tətbiq olunan rəqəmsallaşma prosesinin tərkib hissəsidir:** “Elektron diplom Azərbaycan üçün də bu istiqamətdə atılan məntiqli addımlardan biri hesab oluna bilər. Burada əsas məqsəd, diplomların saxtalaşdırılması riskini minimuma endirmək, sənədlərin yoxlanılmasını sürətləndirmək, dövlət qurumları, işəgötürənlər və məzunlar üçün daha çevik xidmət yaratmaqdır. Artıq, diplomun orijinallığını təsdiqləmək üçün müxtəlif qurumlara müraciət etməyə ehtiyac qalmayacaq. Elektron sistem vasitəsilə, bu məlumatları qısa müddətdə yoxlamaq asanlaşacaq. Tələbələrin narahatlığı da başadüşüləndir. İnsanlar uzun illərdir ali təhsili bitirərkən, əllərində möhürlü və imzalı kağız diplom görməyə öyrəşib. Bu amil psixoloji olaraq məzunlarda, əməyinin fiziki nəticəsini hissetmə duyğusu formalaşdırır. Ona görə də elektron diploma keçidin ilk vaxtlarda narahatlıq doğurması təbii haldır”.

### "Elektron diplom saxtakarlığın qarşısını alacaq, beynəlxalq tanınmanı asanlaşdıracaq"

**Ekspertin sözlərinə görə, rəqəmsal həyata keçid fonunda zamanla bu yanaşma cəmiyyət tərəfindən qəbul ediləcək:** “Elektron diplom sistemi vahid dövlət informasiya bazası üzərindən fəaliyyət göstərəcək və myGov platformasından da əlçatan olacaq. Məzunun diplom məlumatları, elektron reyestrdə saxlanılacaq və ehtiyac olduqda elektron formada təqdim ediləcək. Burada əsas məsələ məlumatların təhlükəsizliyidir. Müasir informasiya sistemlərində, məlumatlar bir neçə ehtiyat serverdə saxlanılır və kibertəhlükəsizlik tədbirləri çərçivəsində, mütəmadi ehtiyat nüsxələri yaradılır. Buna görə də ”məlumatlar birdən silinər” və ya ”tamamilə itib gedər” kimi fikirlər real praktikada o qədər də əsaslı görünmür. Əlbəttə, istənilən elektron sistemdə texniki risklər mövcuddur. Lakin düzgün idarəetmə və güclü təhlükəsizlik infrastrukturu ilə bu risklər minimum səviyyəyə endiriləcək”.

**Ə.Həsənli onu da qeyd edib ki, Azərbaycanın təhsil sistemində bu dəyişikliyə ehtiyac var idi:** “Çünki dövlət xidmətlərinin elektronlaşması artıq qaçılmaz prosesdir. Bu gün şəxsiyyət vəsiqəsindən tutmuş müxtəlif dövlət xidmətlərinə qədər bir çox sahədə rəqəmsal həllərin tətbiq edildiyinin şahidi oluruq. Təhsil də bu prosesdən kənarda qala bilməzdi. Elektron diplom həm vaxt itkisini azaldacaq, həm sənəd dövriyyəsini sadələşdirəcək, həm də beynəlxalq əməkdaşlıqlarda diplomların operativ şəkildə təqdim edilməsinə imkan yaradacaq”.

**Aybəniz Səfərova**

# Kremlin ümumi səfərbərlikdən başqa yolu qalmayıb

## Putin çətin seçim qarşısındadır, enerji böhranı, səfərbərlik və etirazlar ölkəni təhlükəyə sürükləyir



**Rusiyada yeni səfərbərlik ehtimalı yenidən gündəmə gəlib. ABŞ-nin Müharibə Araşdırmaları İnstitutu (ISW) hesab edir ki, Kreml həm mümkün səfərbərlik, həm də bunun doğura biləcəyi ictimai narazılıq və iğtişaş risklərinə qarşı hüquqi və inzibati hazırlıqlarını sürətləndirir.**

Son günlər qəbul edilən qanunlar, “Rosqvardiya”nın səlahiyyətlərinin genişləndirilməsi təşəbbüsü və ehtiyatda olan hərbçilərlə bağlı əvvəlki qərarlar Moskvanın Ukrayna müharibəsi fonunda şəxsi heyət ehtiyacını qarşılamaq üçün yeni addımlara hazırlaşdığı barədə müzakirələri gücləndirib. Bəs Kreml həqiqətən ümumi səfərbərliyə yaxınlaşırmı və belə bir qərar Rusiyanın daxili sabitliyinə necə təsir göstərə bilər?

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə söyləyib ki, hazırda Rusiya olduqca çətin vəziyyətdədir:** “Çünki Rusiyanın mövcud situasiyadan çıxmaq üçün həm hərbi, həm də maliyyə-iqtisadi resursları o qədər də geniş deyil. Rəsmi Kiyev Ukrayna savaşını tədricən Rusiya ərazisinə keçirməyə başlayıb və bu istiqamətdə kifayət qədər ciddi uğurlar qazanmaqdadır. Belə bir şəraitdə, təbii ki, Rusiyanın canlı qüvvə itkilərinin kompensasiya olunması Rusiyanın Ukrayna savaşında əldə edə biləcəyi nəticələrə birbaşa təsir göstərə bilər.

Hələlik resurslar məhduddur. Ona görə də canlı qüvvə itkilərini qısa müddətdə kompensasiya etmək üçün Kremlin ümumi səfərbərlik elan etməkdən başqa çıxış yolu qalmamış görünür. Ancaq Kreml hələlik ümumi səfərbərliyi rəsmi şəkildə elan etməyə o qədər də həvəs göstərmir. Çünki bu baş verərsə, Ukrayna savaşının bütün ağırlığını Rusiya vətəndaşları daha ciddi şəkildə hiss etməyə başlayacaqlar. Ona görə də Rusiya çalışır ki, ümumi səfərbərliyi qeyri-rəsmi şəkildə reallaşdıra bilsin. Bu da ondan ibarətdir ki, ümumi səfərbərlik elan etmədən çağırış yaşına çatmış və hərbi xidmətə yararlı şəxslər qeyri-rəsmi şəkildə, yəni ümumi səfərbərlik elan edilmədən hərbi xidmətə cəlb olunsun və savaş bölgəsinə göndərilsinlər. Kremlin ilk reallaşdırmağa çalışdığı variant bundan ibarətdir”.

**Analitik qeyd edib ki, ökədə böyük həcmdə narazılığın və yaxud etiraz dalğasının yaranmasını istəmirlər:** “Təbii ki, bu cəhdləri yaxın vaxtlarda reallaşdırmağa çalışacaqlar. Amma sentyabr ayında növbəti seçkilər yekunlaşdıqdan sonra Rusiyanın vəziyyəti elə bir həddə çata bilər ki, Kreml ümumi səfərbərliyi rəsmi şəkildə elan etmək məcburiyyətində qalsın. Bu da Kreml üçün olduqca təhlükəli variantdır. Çünki bu halda onsuz da Putin hakimiyyətinin fəaliyyətindən və Ukrayna savaşının uzanmasından narazı olan Rusiya cəmiyyətində ciddi etiraz dalğasının baş qaldıracağı qətiyyən istisna deyil. Rusiya vətəndaşları öz ailə üzvlərinin Ukrayna savaşında həlak olmasına qətiyyən razı görünmürlər. Ona görə də böyük ehtimalla, əgər ümumi səfərbərlik və yaxud da kütləvi orduya çağırış prosesi başlayarsa, bu, Kreml üçün ölkə daxilində xaosun yaranması təhlükəsini ortaya çıxara bilər. Xüsusilə də Ukraynanın Rusiyanın dərinliklərinə endirdiyi zərbələr nəticəsində Rusiyanın ciddi enerji böhranı ilə üzləşdiyi bir şəraitdə bu, Kreml üçün olduqca təhlükəli variantdır”.

**E.Xalidbəyli söyləyib ki, Rusiya hazırda enerji infrastrukturunun çox önəmli bir hissəsini itirib və enerji defisitini neft satdığı ölkələrdən benzin idxal etməklə kompensasiya etməyə çalışır:** “Bu da hələlik yetərli görünmür. Belə bir şəraitdə həm enerji böhranı, həm sosial-iqtisadi böhran, həm də kütləvi orduya çağırış və ümumi səfərbərlik Rusiyada narazılığı və etiraz dalğasını daha da genişləndirə bilər. Bunun nəticəsində Kremlin çox ciddi ölkədaxili xaosla üzləşməsi ehtimalı qətiyyən istisna deyil”.

**Nihat Müzəffər**

# İranın "Türkiyə möhkəm dayandı" mesajının şifrəsi

## Vasitəçilikdən “qayda qoyucu” gücə... Türkiyə artıq geosiyasi memardır

**İranın xarici işlər naziri Abbas Əraqçi verdiyi müsahibədə ABŞ-nin müharibənin əvvəlində planlaşdırdığı ”İranı parçalama layihəsinin” qarşısının alınmasında Türkiyənin mühüm rol oynadığını bildirərək, ”Onlar çox möhkəm mövqe nümayiş etdirdilər” deyib.**

Milliyet.com.tr-yə danışan ekspertlərin fikrincə, Ankara artıq yalnız böhranların həllində vasitəçi rolunu oynamır, eyni zamanda regional qaydaların formalaşmasında iştirak edən ”geosiyasi memar” mövqeyinə yüksəlir.

Əraqçinin sözlərinə görə, müharibənin dördüncü günündə ABŞ Prezidenti Donald Tramp İraq Kürd Regional Rəhbərliyinin bəzi liderləri ilə əlaqə saxlayıb. Bundan sonra o, Məsud Bərzani, Bafel Tələbani, Türkiyənin xarici işlər naziri Hakan Fidan və İraqın Baş naziri Məhəmməd Şiya əs-Sudani ilə danışdığını bildirib.

Əraqçi qeyd edib ki, Türkiyə həm ABŞ tərəfi ilə danışıqlar aparıb, həm də İranın ərazi bütövlüyü məsələsində qətiyyətli mövqe nümayiş etdirib.



ABŞ-nin ”Al Monitor” nəşrinin daha əvvəl yaydığı məlumata görə, İsrailin İran və İraq kürd qruplarını silahlandırmaq planı müzakirə olunmuş, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Donald Trampı bu plandan çəkindirdiyi barədə iddialar irəli sürülmüşdü. Əraqçinin açıqlamaları həmin iddiaların Tehran tərəfindən də təsdiqləndiyi kimi qiymətləndirilir.

**Ekspertlər nə deyir?**

Ankara Sosial Elmlər Universitetinin müəllimi Emete Gözügüzelli bildirib ki, Türkiyə beynəlxalq hüquq çərçivəsində qonşu dövlətlərin ərazi bütövlüyünü daim müdafiə edib və regionun parçalanmasına yönələn planların tərəfdarı olmayıb. Onun sözlərinə görə, Türkiyənin enerji və müdafiə sənayesində qazandığı güc xarici siyasətdə də çəkisini artırıb.

ANKASAM-ın rəhbəri Mehmet Seyfəddin Erol isə Türkiyəni ”geosiyasi dalğaqıran” adlandıraraq bildirib ki, Ankara İran ətrafındakı böhranlarda aktiv neytrallıq və regional məsuliyyət prinsipi ilə hərəkət edir. O vurğulayıb ki, İranın parçalanması Türkiyə, Azərbaycan, Türkmənistan, Əfqanıstan və Pakistanı əhatə edən geniş geosiyasi domino effekti yarada bilər.

İRAM-ın eksperti Rahim Fərzam isə hesab edir ki, Türkiyə İranın ərazi bütövlüyünü strateji prioritet sayır. Onun fikrincə, İranda mərkəzi hakimiyyətin zəifləməsi və ya rejim dəyişikliyi Suriyada olduğu kimi yeni silahlı qrupların yaranmasına, miqrasiya dalğalarının, təhlükəsizlik risklərinin və enerji problemlərinin artmasına səbəb ola bilər.

Ekspertlərin ümumi qənaətinə görə, Türkiyə son illərdə həm Rusiya-Ukrayna müharibəsində, həm də Yaxın Şərqdə baş verən böhranlarda yürüdüyü balanslı diplomatiya sayəsində sadəcə vasitəçi deyil, regional geosiyasi proseslərə təsir göstərən əsas aktorlardan birinə çevrilib. Onların fikrincə, gələcəkdə ABŞ Yaxın Şərq və Qafqazla bağlı planlar hazırlayarkən Ankaranın mövqeyini nəzərə almağa məcbur olacaq.

**Yusif**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması



# Belə davam etsə, əhali sürətlə azalacaq

## Azərbaycanda əhali artımının azalması gələcək üçün ciddi təhlükədir

**Cari ilin ilk beş ayında 15107 nikaha daxilolma və 8087 boşanma halları qeydə alınıb.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,7-dən 3,6-ya, boşanmaların sayı isə 2,0-dan 1,9-a düşüb.

İlin 5 ayı üçün əhali artımı ilə bağlı statistika da  açıqlanıb. İyuna qədər olan məlumata görə, əhali artımı cəmi 9287 nəfər təşkil edib. Bu hesabla ilin sonuna, yəni 2026-cı il üçün əhali artımını 22 min civarında gözləmək olar. 2025-ci ildə əhali artımı 37.462, 2024-cü ildə isə 44.119 nəfər idi.

Mütəxəssislər hesab edirlər ki, bu tendensiya təkcə statistik rəqəmlərin dəyişməsi kimi qiymətləndirilməməlidir. Gənclərin ailə qurma yaşının yüksəlməsi, iqtisadi çətinliklər, mənzil problemi, məşğulluq imkanları, miqrasiya prosesləri, dəyişən həyat tərzi və ailə dəyərlərinə münasibətdə baş verən transformasiya nikahların sayına birbaşa təsir göstərən əsas amillər sırasındadır. Digər tərəfdən, boşanmaların hələ də yüksək səviyyədə qalması mövcud ailələrin davamlılığı ilə bağlı problemlərin aradan qalxmadığını göstərir.

Demoqrafiya yalnız əhalinin sayından ibarət məsələ deyil. Bu göstəricilər ölkənin sosial, iqtisadi və milli təhlükəsizlik strategiyası ilə sıx bağlıdır. Əhali artım tempinin zəifləməsi uzunmüddətli perspektivdə əmək qabiliyyətli əhalinin azalması, yaşlanmanın sürətlənməsi və sosial yükün artması kimi nəticələr doğura bilər. Məhz buna görə də son statistika fonunda ailə siyasətinin səmərəliliyi, gənclərin ailə qurmasını stimullaşdıran mexanizmlər və doğumun təşviqi istiqamətində həyata keçirilən tədbirlərin yetərliliyi yenidən müzakirə mövzusuna çevrilib. Mövcud dinamika davam edərsə, Azərbaycan yaxın illərdə təkcə ailə institutunun zəifləməsi ilə deyil, həm də demoqrafik tarazlığın qorunması baxımından ciddi çağırışlarla üzləşə bilər.

**Mövzunu "Şərq"ə şərh edən sosioloq Mail Yaqub Azərbaycanda əhali artım tempinin zəifləməsini ciddi demoqrafik çağırış kimi qiymətləndirib. Onun fikrincə, mövcud tendensiya uzunmüddətli perspektivdə ölkənin demoqrafik tarazlığına mənfi təsir göstərə bilər:** "Əhali artım tempinin azalması Azərbaycan üçün ciddi narahatlıq doğuran tendensiyadır və gələcək baxımından müsbət perspektiv vəd etmir. Onsuz da ölkəmizin əhalisi böyük deyil. Əgər mövcud dinamika uzun müddət davam edərsə, növbəti onilliklərdə əhalinin sayında ciddi azalma baş verə bilər. Bu prosesi artıq Rusiya və bir sıra Avropa ölkələrinin timsalında müşahidə edirik".

**Sosioloqun sözlərinə görə, əhali artımının zəifləməsinin əsas səbəbləri sosial-iqtisadi problemlər və ailə modelində baş verən dəyişikliklərlə bağlıdır:** "Digər mühüm amil isə ailələrin həyat tərzinin və dəyərlərinin dəyişməsidir. Artıq təkcə maddi imkansız ailələr deyil, iqtisadi vəziyyəti yaxşı olan ailələr də daha az uşaq sahibi olmağa üstünlük verirlər. Bu, cəmiyyətin ailə və övlad sayı ilə bağlı baxışının dəyişdiyini göstərir. Demoqrafik geriləmənin qarşısını almaq üçün dövlət tərəfindən ailələri stimullaşdıran sosial siyasət həyata keçirilməlidir. Dövlət bu prosesə laqeyd qalmamalı və ailələri daha çox uşaq sahibi olmağa təşviq edən mexanizmlər tətbiq etməlidir. Xüsusilə ikinci və üçüncü uşağın dünyaya gəlməsini stimullaşdıracaq vergi güzəştləri, sosial ödənişlər, mənzil və digər dəstək proqramları hazırlanmalıdır. Beynəlxalq təcrübə göstərir ki, düzgün sosial siyasət demoqrafik vəziyyətə müsbət təsir edə bilir. Ailələrin rifahı yüksəldikcə demoqrafik göstəricilər də müsbət istiqamətdə dəyişə bilir. Azərbaycanda da sosial-iqtisadi vəziyyət yaxşılaşarsa və ailələrə real dəstək mexanizmləri tətbiq olunarsa, əhali artım tempini yenidən yüksəltmək mümkündür"

**Sosioloq Elçin Bayramlı isə qeyd edib ki, təbii əhali artımının azalması təkcə Azərbaycana məxsus deyil, bütün dünyada müşahidə olunan qlobal demoqrafik tendensiyadır.**

**Sosioloq hesab edir ki, bu prosesin əsas səbəbi sosial-iqtisadi amillərdən daha çox cəmiyyətin dəyər sistemində baş verən dəyişikliklərlə bağlıdır:** "Aparılan sosial müşahidələr göstərir ki, evliliklərin azalması və ailələrdə uşaq sayının aşağı düşməsi daha çox mənəvi-psixoloji amillərlə bağlıdır. Müasir həyat tərzi, fərdiyyətçiliyin güclənməsi və gənclərin daha çox öz rahatlıqlarını prioritet hesab etməsi bu prosesə ciddi təsir göstərir. İnsanlar açıq şəkildə bildirirlər ki, yalnız özləri üçün yaşamaq istəyirlər və daha çox övlad sahibi olmaq istəmirlər. Maddi imkanları yüksək olan ailələrdə də adətən bir və ya iki uşaq dünyaya gəlir. Bu isə problemin təkcə iqtisadi səbəblərlə izah edilə bilməyəcəyini göstərir".

## Sosioloq: "Artıq imkanlı ailələr də az uşaq sahibi olmağa üstünlük verirlər"

**Sosioloqun fikrincə, son illər aparılan müxtəlif ideoloji və mədəni təsirlər də ailə modelinin dəyişməsində müəyyən rol oynayıb:** "Müasirlik və azadlıq anlayışlarının yanlış təqdim olunması nəticəsində gənclər arasında fərdi maraqlar ön plana çıxıb. Bu isə ailə institutunun zəifləməsinə, əhalinin yaşlanmasına və uzunmüddətli perspektivdə demoqrafik problemlərin dərinləşməsinə səbəb olur. Buna görə də ailə dəyərlərinin təbliği, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi və ailə institutunun möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Cəmiyyətdə ən azı iki-üç uşaqdan ibarət ailə modelinin üstünlükləri daha geniş izah edilməlidir. Mənəvi dəyərlərin təşviqi ilə yanaşı, dövlət tərəfindən sosial dəstək mexanizmlərinin də gücləndirilməsi vacibdir. Gənc ailələrin mənzillə təmin olunması üçün güzəştli proqramlar hazırlanmalı, uzunmüddətli və əlverişli kredit imkanları genişləndirilməlidir. Eyni zamanda, gənclərin məşğulluğu və sabit gəlirlə təmin olunması istiqamətində addımlar atılmalıdır. Yalnız ailə dəyərlərinin təbliği ilə dövlətin sosial dəstək siyasəti paralel şəkildə həyata keçirilərsə, demoqrafik vəziyyətin yaxşılaşmasına nail olmaq mümkün olar".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Qarabağdakı tikinti şirkətləri ilə bağlı yoxlamalar aparılmalıdır

## Mənimsənilmiş vəsait dövlət büdcəsinə qaytarılmalı, yeyinti və korrupsiya faktları təsdiqlənərsə, məsul şəxslər barəsində cinayət işi başlanmalıdır



**Qarabağa təyin olunan məmurlara ona görə səlahiyyət verməyib ki, tikinti şirkətlərinin keyfiyyətsiz, başdansovdu evlər və binalar tikməsinə göz yumsunlar, keçmiş məcburi köçkünləri isə tələm-tələsik həmin evlərə və mənzillərə yerləşdirsinlər.**

Hazırda Qarabağa köçürülmüş insanların çoxsaylı şikayət və narazılıqları məhz bunu deməyə əsas verir. Görünən odur ki, bəzi məmurlar məskunlaşma prosesini keyfiyyətli şəkildə icra etmək əvəzinə, insanları başdansovdu tikilmiş evlərə və mənzillərə yerləşdirirlər. Məqsəd isə yuxarı instansiyalara statistik məlumat təqdim edərək, "filan qədər insan köçürüldü" deyə tapşırığın icra olunduğunu göstərməkdir. Təxminən 30 il yataqxanalarda və yarımçıq tikililərdə məşəqqətli həyat sürmüş insanlar doğma yurdlarında da müxtəlif problemlərlə üzləşirlər. Sosial şəbəkələrdə yayılan görüntülər bunu təsdiqləyir. Ağdamda, Xocalıda və digər şəhər və qəsəbələrdə binaların keyfiyyətsiz inşa edildiyini, ev və mənzillərin qısa müddət ərzində yararsız vəziyyətə düşdüyünü sakinlər videoya çəkərək paylaşırlar.

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, məsələ ciddi araşdırma tələb edir:**

- Son zamanlar Qarabağa qayıdaraq məskunlaşan insanların yerləşdirildiyi evlərdə, həmçinin binaların ümumi infrastrukturunda və xarici tamamlama işlərində kifayət qədər ciddi problemlərin ortaya çıxdığı müşahidə olunur. Sosial şəbəkələrdə bununla bağlı paylaşımlar artıq kütləvi xarakter alıb. Açıq görünür ki, burada korrupsiya və yeyinti amilləri mövcuddur. Evlərin fasadlarında tökülmələr və ciddi nöqsanlar müşahidə edilir.

Qarabağa qayıdışla bağlı bizim təklifimiz olmuşdu ki, dövlətin nəzarəti altında, şəhərsalma prinsiplərinə riayət edilməklə sakinlərin öz istəklərinə uyğun keyfiyyətdə, formatda və dizaynda ev tikmələrinə imkan yaradılsın. Hesablamalar aparılaraq tikinti üçün tələb olunan vəsait müəyyən edilə bilərdi. Büdcədən ayrılan vəsait fərdi qaydada vətəndaşlara ödənilər, məsuliyyət də onların üzərində qalardı. Lakin bu təklifə baxılmadı. Nəticədə belə bir vəziyyət yaranıb. Görünür, tender proseslərində müəyyən maraqlı qüvvələrin təsiri olub. Layihələr hansısa şirkətlərə, onlar isə podratçılara ötürülüb. Nəticədə keyfiyyətsiz evlər və binalar inşa edilir, qısa müddət sonra isə dağılmağa başlayır. Fövqəladə Hallar Nazirliyinin istifadə olunan tikinti materiallarının keyfiyyəti ilə bağlı rəyləri və analizləri olmalıdır. Necə ki, Bakıda betonun keyfiyyəti xüsusi laboratoriyalarda və diaqnostik vasitələrlə yoxlanılır, Qarabağda da eyni qaydada nəzarət həyata keçirilməlidir.

**İ.Hüseynli bildirib ki, şikayət edənləri susdurmaq əvəzinə, keyfiyyətsiz tikintiyə səbəb olan şirkətlərlə bağlı araşdırma aparılmalıdır:**

- Paylaşımlarda açıq-aşkar görünür ki, evlərin ətraf hissələri dağılıb, üzlük plitələr qoparaq tökülüb, müxtəlif boşluqlar əmələ gəlib. Çox keyfiyyətsiz iş görülüb. Cənab Prezident ictimai nəzarətin və ictimai iştirakçılığın vacibliyini dəfələrlə vurğulayıb. Narazılığa səbəb olan halları göstərən insanlara hədə-qorxu gəlinərək "üzr videosu" çəkdiriləcəksə, problemin həllinə necə nail olmaq olar? Vətəndaş problemi göstərib ictimailəşdirir, lakin ona təzyiq göstərilərək üzr istəməyə məcbur edilir.

Qarabağın kənd, qəsəbə və şəhərlərində tikinti işləri tam başa çatana qədər ciddi nəzarət mexanizmləri qurulmalı, şişirdilmiş smetalar vasitəsilə dövlət büdcəsinin talanmasının qarşısı alınmalıdır.

**İ.Hüseynli hesab edir ki, Qarabağda tikinti həyata keçirən şirkətlərlə bağlı yoxlamalar aparılmalı, mənimsənilmiş vəsait dövlət büdcəsinə qaytarılmalı, yeyinti və korrupsiya faktları təsdiqlənərsə, məsul şəxslər barəsində cinayət işi başlanmalıdır.**

**Məlahət Rzayeva**

# Skuterləri əks istiqamətdə ölümə doğru sürürlər

## Ekspert həyəcan təbili çaldı



**Elektrikli skuter idarə edənlərin avtomobil yollarında məsuliyyətsiz davranışları davam edir. Skuter sürənlər elə bilirlər ki, istədikləri yerdə, istədikləri şəkildə hərəkət edə bilərlər. Skuter idarə edənlərin yolu əks istiqamətdə hərəkət etməsi ilə bağlı İctimai Televiziyada görüntülər yayımlanıb.** Kadrlarda skuterlərin həm avtomobillərin, həm də piyadaların hərəkətinə mane olduğu görünür.

**Nəqliyyat sahəsi üzrə mütəxəssis Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında bildirib ki, kiçik elektrikli nəqliyyat vasitələri ilə bağlı qaydalar artıq müəyyənləşdirilib və qanunvericilikdə təsbit olunub:**

- Qanun qəbul edilib və yol hərəkəti qaydalarının pozulmasına görə cərimələr nəzərdə tutulub. Kiçik elektrikli nəqliyyat vasitələrini idarə edən şəxslərə də qayda pozuntularına görə cərimələr tətbiq edilməlidir. Bu kimi halların qarşısını almaq üçün cərimələr ən effektiv vasitədir. Tənbeh məqsədilə bundan daha təsirli vasitə ola bilməz.

**E.Cəfərov qeyd edib ki, xüsusi zəruri hal olmadıqda heç bir nəqliyyat vasitəsinin əks istiqamətdə hərəkət etməsinə icazə verilmir:**

- Azərbaycan Respublikasının "Yol hərəkəti haqqında" Qanununa əsasən, nəqliyyat vasitəsinin ümumi nəqliyyat axınının və ya işarələnmiş hərəkət istiqamətinin əksinə, yəni birtərəfli yolda və ya əks hərəkət zolağında irəli istiqamətdə hərəkət etməsinə heç bir halda icazə verilmir və bu, qəti qadağandır. Nəqliyyat vasitəsinin hərəkət istiqamətinin əksinə hərəkət etməsinə yalnız xüsusi və təhlükəsiz manevrlər zamanı yol verilir. Məsələn, dayanacaqdan çıxarkən, dar yerdə dönərkən və ya parkinq edərkən, digər hərəkət iştirakçılarına maneə yaratmamaq şərti ilə qısa məsafədə geriyə hərəkət etmək mümkündür. Bu qayda avtomagistrallar və yolayrıclarına şamil edilmir.

## İstədikləri kimi hərəkət edən sürücülərə qarşı sərt tədbirlər tələb olunur

Bu tələblər bütün yol hərəkəti iştirakçılarına və bütün nəqliyyat vasitələrinə aiddir. Elektrikli skuterlər və velosipedlər onlar üçün ayrılmış xüsusi zolaqla hərəkət etməlidirlər. Belə zolaq olmadıqda isə yolun hərəkət hissəsinin ən sağ zolağından istifadə etməlidirlər. Elektrikli skuterlərin avtomobil yolunda əks istiqamətdə hərəkət etməsi yol hərəkəti qaydalarının pozulmasıdır və digər hərəkət iştirakçıları, o cümlədən piyadalar üçün ciddi təhlükə yaradır.

**Məlahət**

# Psixoloqa getmək xəstə olmaq demək deyil

## Şagirdləri damğalamaq yox, vaxtında dəstək vermək lazımdır



**Son illər dünyada uşaqlar və yeniyetmələr arasında depressiya, təşviş pozuntuları, aqressiv davranış, məktəb zorakılığı, müxtəlif asılılıqlar və özünə zərər vermə hallarında artım müşahidə olunduğundan bir çox ölkələr bu problemlərin erkən aşkarlanmasına yönəlmiş preventiv mexanizmlər tətbiq etməyə başlayıb.**

Bu istiqamətdə Türkiyədə həyata keçirilməsi planlaşdırılan yeni riskin ilkin yoxlama proqramı diqqət çəkir. Layihə çərçivəsində müəyyən siniflərdə təhsil alan şagirdlərin psixi sağlamlığı anketlər vasitəsilə qiymətləndiriləcək, eyni zamanda valideyn və müəllimlərin də müşahidələri nəzərə alınacaq. Məqsəd psixoloji riskləri erkən mərhələdə müəyyənləşdirərək uşaqları vaxtında müvafiq mütəxəssislərə yönləndirmək, gələcəkdə daha ciddi psixi və davranış problemlərinin qarşısını almaqdır. Türkiyə Milli Təhsil Nazirliyi ilə birgə həyata keçirilməsi nəzərdə tutulan layihə 4, 7, 9 və 11-ci siniflərdə şagirdlər, valideynlər və müəllimlər arasında anket əsaslı risk qiymətləndirilməsi aparılacaq. Araşdırma zamanı ümumi psixi sağlamlıq, qəzəbə nəzarət, impulsiv davranışlar, asılılıq, məktəb zorakılığı, özünə zərər vermə və istismar riskləri qiymətləndiriləcək.

Qeyd edək ki, Türkiyədə tətbiq olunacaq modelin Azərbaycanda da tətbiqinə ehtiyacın olub-olmaması, məktəblərdə psixoloji qiymətləndirmə sisteminin yaradılmasının nə dərəcədə mümkün və faydalı olacağı müzakirə olunan məsələlərdəndir. Mütəxəssislər hesab edir ki, belə bir mexanizm uşaqlarda psixoloji problemlərin vaxtında aşkarlanmasına, erkən müdaxilənin təmin edilməsinə və uzunmüddətli fəsadların qarşısının alınmasına mühüm töhfə verə bilər.

Mövzunu ”Şərq”ə şərh edən klinik psixoloq Aytən Ələkbərova bildirib ki, məktəblərdə psixi sağlamlığın qiymətləndirilməsinə yönəlmiş belə layihələrin uğurla həyata keçirilməsi üçün ilk növbədə anonimlik və məxfiliyin qorunması təmin edilməlidir.

Onun sözlərinə görə, aparılan qiymətləndirmə nəticəsində hər hansı şagirddə psixoloji problem, inkişaf pozuntusu və ya davranış dəyişikliyi aşkarlanarsa, həmin uşaq ehtiyacına uyğun olaraq psixoloqa, nevroloqa və ya uşaq psixiatrına yönləndirilməlidir. Lakin bütün bu proses elə təşkil olunmalıdır ki, uşaqlar arasında ayrı-seçkilik yaranmasın və onların damğalanmasına səbəb olacaq hallar baş verməsin.

**Psixoloq qeyd edib ki, Azərbaycan cəmiyyətində psixoloji yardım almağa qarşı hələ də müəyyən stereotiplər mövcuddur:** “Valideynlərin bir qismi övladının psixoloqa müraciət etməsini gizlətməyə çalışır. Təcrübəmdə bununla tez-tez rastlaşıram. Məktəbdən mənə yönləndirilən uşaqların valideynləri narahatlıqla deyirlər ki, “Birdən məktəbdən kimsə bizi burada görər”. Bu yanaşma göstərir ki, cəmiyyətdə psixoloqa müraciətlə bağlı hələ də yanlış təsəvvürlər qalmaqdadır və valideynlər bu məsələyə təşvişlə yanaşırlar”.

### Türkiyədə tətbiq olunacaq model Azərbaycanda da tətbiq edilməlidir

**A.Ələkbərovanın fikrincə, psixoloji müayinələrin erkən mərhələdə aparılması gələcəkdə daha ciddi psixi sağlamlıq problemlərinin qarşısının alınmasına xidmət edir:** ”Valideynlər anlamalıdırlar ki, psixoloqa müraciət etmək xəstə olmaq demək deyil. Əksinə, psixoloji dəstəyin vaxtında alınması gələcəkdə daha ağır problemlərin yaranmasının qarşısını ala bilər. Bu baxımdan məktəblərdə belə layihələrin həyata keçirilməsi və psixoloji risklərin erkən aşkarlanması uşaqların sağlam inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Təəssüf ki, bəzi valideynlər hələ də övladlarını qorumaq məqsədilə belə layihələrdə iştirakdan çəkinirlər. Halbuki bu cür proqramlar məhz uşaqların sağlam gələcəyi naminə həyata keçirilir”.

**Psixoloq hesab edir ki, belə layihələrin uğurlu olması üçün təkcə psixoloji qiymətləndirmənin aparılması kifayət deyil. Ən vacib şərtlərdən biri peşə etikası və məxfiliyin qorunmasıdır. Onun sözlərinə görə, Azərbaycan reallığında məxfilik prinsipinin pozulması halları hələ də müşahidə olunur və bu, uşaqlar üçün ağır psixoloji nəticələrə səbəb ola bilir:** “Bizdə bəzən məktəblərdə psixoloqun şagirdlə apardığı söhbətin digər müəllimlərlə müzakirə edildiyi hallarla rastlaşırıq. Hətta bu yaxınlarda, uşaqlar tətilə çıxmamışdan qabaq, psixoloqlardan biri uşaqla apardığı söhbəti müəllimlər otağında müzakirəyə çıxarmışdı və müzakirə nəticəsində yeniyetmənin davranışlarına əsasən ona hətta bir tərbiyəsiz damğası vurulmuşdu. Bu cür münasibət uşağın psixoloji durumuna ciddi təsir göstərmiş, onu intihara qədər aparan ağır nəticələr doğurmuşdu. Xoşbəxtlikdən sonradan həmin uşaqla aparılan peşəkar psixoloji iş nəticəsində vəziyyəti stabilləşdirmək mümkün oldu”.

**Mütəxəssis həmçinin vurğulayıb ki, Azərbaycan məktəblərində belə layihələr həyata keçiriləcəyi təqdirdə, prosesə cəlb olunan bütün mütəxəssislər məxfilik prinsipinə ciddi əməl etməlidirlər: “Əks təqdirdə biz övladlarımızı qazanmaq əvəzinə itirə bilərik. Məxfiliyin pozulması uşağın gələcək həyatına, sosial münasibətlərinə, təhsilinə, hətta ailə qurmasına qədər uzanan psixoloji problemlər yarada bilər. Risk qrupuna daxil olan uşaqların damğalanması deyil, peşəkar nəzarətə götürülməsi əsas məqsəd olmalıdır. Psixoloji risk daşıyan şagirdlər xüsusi diqqət və müşahidəyə ehtiyac duyurlar. Onların cəmiyyət qarşısında etiketlənməsi yox, düzgün dəstək alması təmin edilməlidir. Bu, həm məktəb dövründə, həm də sonrakı həyat mərhələlərində onların sağlam inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Biz bəzən baxırıq ki, risk qrupuna aid ediləcək şagirdlər var ki, gələcəkdə onların 10–11-ci sinifdən sonra hətta ilkin hərbi xidmət zamanı belə risk qrupuna aid edilən uşaqlar olurlar ki, onlar da xüsusi nəzarət tələb edən, diqqətdə saxlanılan əsgərlər siyahısında olurlar. Bu baxımdan biz mütləq şəkildə nəzarət tələb edən şagirdi daimi nəzarətdə saxlamalıyıq. Bizim ən mühüm peşə borcumuz etimadı və məxfiliyi qorumaqdır. Şəxsi məlumatların və ya etirafların müxtəlif platformalarda, hətta ad çəkilmədən paylaşılması belə insanda dərin psixoloji travma yarada bilər. İnsan psixoloqa ən şəxsi hiss və düşüncələrini etibar edir. Həmin etimadın pozulması onun özünəinamını sarsıda, psixoloji vəziyyətini daha da ağırlaşdıra bilər. Buna görə də bu cür layihələrin əsasını peşəkarlıq, etik davranış və anonimlik təşkil etməlidir. Bu yaxınlarda ”TikTok” platformasında bir istifadəçinin belə bir şərhini oxudum:** “Mən sənə sirrimi danışmışam. Hansı səbəbdən mənim sirrimi ”TikTok”da paylaşırsan? Adımı çəkməsən də, öz hekayəmi eşidəndə özümə nifrət etdim və özümə olan güvənimi itirdim”. Bu, məxfiliyin pozulmasının insan psixologiyasına necə ağır təsir etdiyini göstərən çox acı nümunədir”.

**Təhsil İşçilərinin Həmrəyliyi Alyansının (TİHA) sədri, təhsil eksperti Əmrah Həsənli isə bildirib ki, belə bir model elmi əsaslarla hazırlanacağı və peşəkar şəkildə həyata keçiriləcəyi təqdirdə, onun Azərbaycanda da tətbiqi məqsədəuyğun hesab oluna bilər. Həmsöhbətimizin sözlərinə görə, son illər məktəblərdə diqqət yalnız şagirdlərin akademik göstəricilərinə yönəldilməməli, onların psixoloji rifahı da təhsil prosesinin ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir:** “İmtahan stresi, ailədaxili problemlər, məktəb zorakılığı, sosial medianın təsiri, rəqəmsal asılılıq, sosial təcrid kimi amillər uşaqların psixologiyasına istənilən halda təsir göstərir. Təəssüf ki, bir çox hallarda bu problemlər yalnız ağırlaşdıqdan sonra üzə çıxır. Belə bir risk izləmə, tarama proqramının əsas üstünlüyü məhz problemlərin erkən mərhələdə müəyyən edilməsidir. Şagird, müəllim və valideyn arasında aparılan anonim və elmi əsaslı qiymətləndirmə sayəsində davranış dəyişiklikləri, emosional gərginlik, aqressiya, depressiya əlamətləri, zorakılıq törətmə meyilləri vaxtında aşkarlana bilər. Həmçinin erkən diaqnostika isə sonrakı mərhələdə daha ağır psixoloji və sosial problemlərin qarşısını almağa kömək edə bilər”.

**Əmrah Həsənli vurğulayıb ki, belə bir proqramın effektivliyi onun yalnız anketlərin doldurulması ilə məhdudlaşmamasından asılıdır. Onun fikrincə, qiymətləndirmə prosesi elmi yanaşma əsasında qurulmalı və peşəkar mütəxəssislər tərəfindən həyata keçirilməli, bütün məlumatların məxfiliyi isə tam şəkildə təmin olunmalıdır:** “Bu modelin uğurlu tətbiqi üçün məktəb psixoloqlarının peşəkar hazırlığının gücləndirilməsi də vacib şərtlərdəndir. Əks halda, yanlış qiymətləndirmələr və ya şəxsi məlumatların lazımi qaydada qorunmaması uşaqların psixoloji vəziyyətinin daha da ağırlaşmasına səbəb ola bilər. Ona görə də belə layihələrin icrasında peşəkarlıq, etik prinsiplər və məxfilik əsas prioritet olmalıdır. Azərbaycanda belə bir model tətbiq ediləcəksə, ilk növbədə məktəblərdə psixoloji xidmət sistemi daha da gücləndirilməlidir. Hazırda bəzi ümumtəhsil müəssisələrində psixoloq sayı kifayət etmir, mövcud mütəxəssislərin üzərinə düşən iş yükü isə həddindən artıq çoxdur. Bu şəraitdə risk tarama proqramının effektiv şəkildə həyata keçirilməsi çətin ola bilər”.

**Ekspert qeyd edib ki, proqramın səmərə verməsi üçün məktəb psixoloqları, müəllimlər, valideynlər və səhiyyə sistemi arasında koordinasiyalı əməkdaşlıq mexanizmi qurulmalıdır:** ”Risk taramasının real nəticə verməsi üçün məktəb psixoloqları, ailələr, müəllimlər və səhiyyə sistemi arasında koordinasiyalı əməkdaşlıq təmin edilməlidir. Ən vacib məqamlardan biri isə risk müəyyən edildikdən sonra həmin uşağın hansı mexanizmlə psixoloji və ya tibbi dəstək alacağının əvvəlcədən müəyyənləşdirilməsidir. Çünki problemin aşkarlanması hələ onun həlli demək deyil. Əsas məqsəd vaxtında və düzgün müdaxilə mexanizminin işləməsini təmin etməkdir. Digər mühüm məsələ isə bizim valideynlərin maarifləndirilməsidir. Azərbaycan cəmiyyətində hələ də psixoloqa müraciəti yanlış dəyərləndirən stereotiplər mövcuddur və bu yanaşmanın dəyişdirilməsinə ehtiyac var. Halbuki psixoloji dəstək almaq xəstəlik əlaməti deyil, uşağın sağlam psixoloji və emosional inkişafının vacib tərkib hissəsidir. Valideynlər bu cür proqramlara nəzarət və ya cəza mexanizmi kimi deyil, övladlarının rifahını qorumağa xidmət edən dəstək modeli kimi yanaşmalıdırlar. Yalnız bu halda məktəb, ailə və mütəxəssislər arasında etibarlı əməkdaşlıq formalaşa bilər və belə layihələr gözlənilən nəticəni verər”.

**Ə.Həsənli sonda qeyd edib ki, bu cür layihələr uşaqlarda psixoloji problemlərin erkən mərhələdə aşkarlanması, məktəb zorakılığının (bullinq) azalması və riskli davranışların vaxtında müəyyən edilməsi baxımından böyük əhəmiyyət kəsb edir:** “Unutmaq olmaz ki, təşəbbüsün uğuru yalnız anket keçirməklə bitmir. Əsas məsələ növbəti mərhələdə peşəkar psixoloji müdaxilənin olunması, davamlı müşahidənin aparılması və valideyn-məktəb əməkdaşlığının sıx təşkilidir. Yalnız bu halda məktəblər təkcə bilik verən müəssisə deyil, həm də uşaqların emosional və psixoloji rifahını qoruyan təhlükəsiz inkişaf mühitinə çevrilə bilər”.

**Şəymən Bayramova**

# Aliment borcu olan qadınların sayında da artım müşahidə olunur

## “Bu, qanunun tələbidir və hər bir valideyn üzərinə düşən məsuliyyəti yerinə yetirməlidir”



**Cari ilin ilk altı ayında icraatda olan 131 mindən çox aliment işi üzrə təxminən 2400 halda borclu tərəf qadın olub.**

Mütəxəssislər hesab edirlər ki, bu göstərici təkcə hüquqi statistika deyil, həm də ailə münasibətlərində baş verən dəyişikliklərin və valideyn məsuliyyətinin daha bərabər bölüşdürülməsinin göstəricisidir. Onların fikrincə, uşağın məhkəmə qərarı ilə atanın himayəsində qalması halları artdıqca, aliment öhdəliyinin ana tərəfindən yerinə yetirilməsi də qanunun tələbidir.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan vəkil Ramil Süleymanov bildirib ki, Azərbaycan qanunvericiliyinə əsasən qadın və kişi hüquq və vəzifələr baxımından bərabərdir:** ”Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, qanun qarşısında hamı bərabərdir və qadınlarla kişilər eyni hüquq və vəzifələrə malikdirlər. Bu prinsip aliment öhdəliklərinə də şamil olunur. Məhkəmə uşağın hansı valideynin himayəsində qalacağına dair qərar qəbul edir. Əgər uşaq atanın himayəsində saxlanılırsa, bu halda ana onun saxlanılması üçün aliment ödəməlidir.

Alimentin ödənilməsinə dövlət icra xidmətinin əməkdaşları nəzarət edir. Son dövrlərdə aliment borcu olan qadınların sayında da artım müşahidə olunur. Məhkəmə qərarı qüvvəyə mindikdən sonra həm qadınlar, həm də kişilər həmin qərarı icra etməyə borcludurlar. Bu, qanunun tələbidir və hər bir valideyn üzərinə düşən məsuliyyəti yerinə yetirməlidir”.

**Şəymən Bayramova**

# Xalq artisti Tofiq Mirzəyev İsraildə dəfn olunub

**”Azərbaycan Respublikasının Xalq artisti, görkəmli teatr və kino aktyoru, rejissor Tofiq Mirzəyev 22 iyul 2026-cı il tarixində ömrünün son illərini yaşadığı İsrailin Arad şəhərində torpağa tapşırılıb”.**



Bu, Diasporla İş üzrə Dövlət Komitəsinin yaydığı məlumatda əksini tapıb.

Qeyd edilib ki, dəfn mərasimində İsraildə yaşayan Azərbaycan icmasının nümayəndələri və Tofiq Mirzəyevin oğlu iştirak edib.

“Azİz” İsrail–Azərbaycan Beynəlxalq Assosiasiyasının vitse-prezidenti, İsraildə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Yeganə Salman çıxış edərək Azərbaycan icması adından mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib. O, Tofiq Mirzəyevin Azərbaycan mədəniyyətinin inkişafındakı əvəzsiz xidmətlərindən, Vətəndən uzaqda yaşamasına baxmayaraq Azərbaycanla bağlılığını hər zaman qoruyub saxlamasından və diaspor fəaliyyətinə verdiyi töhfələrdən bəhs edib.

Çıxışlarda vurğulanıb ki, Tofiq Mirzəyevin Azərbaycan mədəniyyətinin inkişafına və diaspor fəaliyyətinə verdiyi töhfələr hər zaman minnətdarlıq hissi ilə xatırlanacaq, onun əziz xatirəsi Azərbaycan icmasının yaddaşında dərin hörmət və ehtiramla yaşayacaq. Mərhumun məzarı üzərinə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və “Azİz” İsrail–Azərbaycan Beynəlxalq Assosiasiyası adından əklillər qoyulub, xatirəsi ehtiramla yad edilib”, - məlumatda bildirilib.

# Ev heyvanları xoşbəxt edir

## Lakin stressə çarə deyil

**Yeni araşdırma pişik və itlərlə ünsiyyətin insanların ümumi əhval-ruhiyyəsini yaxşılaşdırdığını, lakin stressli anlarda gözlənildiyi kimi sakitləşdirici təsir göstərmədiyini ortaya qoyub.**

Sherg.az xəbər verir ki, araşdırmada 188 pişik və it sahibinin məlumatları təhlil edilib. İştirakçılar gün ərzində telefon vasitəsilə əhval-ruhiyyələri, stress səviyyələri və ev heyvanları ilə qarşılıqlı əlaqələri barədə məlumat veriblər.

Nəticələr göstərib ki, pişiklərlə daha intensiv ünsiyyət bəzi hallarda stress hissini azaltmaq əvəzinə artıra bilər. İtlərlə ünsiyyətin isə stress üzərində nə müsbət, nə də mənfi əhəmiyyətli təsiri müəyyən edilməyib.

Psixoloq Mayke Yanssensin sözlərinə görə, həm pişik, həm də itlərlə qarşılıqlı əlaqə insanların ümumi emosional vəziyyətinə müsbət təsir etsə də, bunun əsas səbəbi stressin azalması deyil.

Tədqiqat həmçinin göstərib ki, ev heyvanları ilə vaxt keçirmək müsbət emosiyaları artırır və mənfi hissləri azaldır. Bu da onların ümumi psixoloji rifaha və həyat keyfiyyətinə töhfə verdiyini göstərir.

Mütəxəssislər vurğulayırlar ki, hansı heyvanın daha yaxşı ev heyvanı olduğunu demək mümkün deyil. Burada əsas rol sahibin xarakteri, ehtiyacları və heyvanla qurduğu münasibətin xüsusiyyətlərinə məxsusdur.

Araşdırmanın yekun nəticəsinə görə, pişiklər və itlər insanların əhval-ruhiyyəsini yaxşılaşdıra bilir, lakin onların təsiri ani stressi aradan qaldırmaqdan daha çox ümumi emosional rifahın yüksəlməsində özünü göstərir.

**Elanlar**

”AtaHoldinq” MMC (VÖEN: 1400096711) nizamnamə kapitalının 39.571.815,66 manata azaldığını elan edir.

Xəlfəyev Xəlfə Bibiqulu oğluna (AZE 06015328) məxsus 10 SB 631 dövlət nişanlı ”Volvo” avtomobilinin nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (texniki pasport) və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Təsisçi: “Şərq Media Qrup” MMC**
**Baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun I müavini: Yusif Nəzərli**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, Nihat Müzəffər, Banuçiçək Kalbalıyeva, Aybəniz Səfərova, Elmar İbrahimli

**Texniki heyət:**
Xaqani Kosayev, Pərvin İbrahimov
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50,
Elan, reklam - mob: (050) 313-82-83,
İndeks: AZ1073

**Hesab nömrəsi:**
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 938



## Cəmi 21 gün gülümsəyin

### Beyninizdə təəccüblü dəyişiklik başlayacaq

**Cəmi 21 gün ardıcıl gülümsəmək insanın düşüncə tərzinə və əhvalına müsbət təsir göstərir.**

”Şərq” xəbər verir ki, mütəxəssislərin fikrincə, gülümsəmək stressi azaldır, insanın özünəinamını artırır və başqalarının gözündə onu daha səmimi və etibarlı göstərir.

Araşdırmalara əsasən, müsbət emosiyaların davamlı təkrarlanması beynin hadisələri daha pozitiv qiymətləndirməsinə kömək edir. Bu proses bəzi mütəxəssislər tərəfindən ”Tetris effekti” adlandırılır. Belə ki, müəyyən davranış uzun müddət təkrarlanarsa, beyin onu vərdiş kimi qəbul edir.

Psixoloqlar hesab edirlər ki, 21 gün ərzində eyni müsbət davranışın davam etdirilməsi onun gündəlik vərdişə çevrilməsinə kömək edə bilər. Bu səbəbdən mütəmadi gülümsəməyin insanın əhvali-ruhiyyəsinə və həyata baxışına müsbət təsir göstərdiyi qeyd olunur.

Bununla yanaşı, mütəxəssislər vurğulayırlar ki, xoşbəxtlik təkcə gülümsəməkdən asılı deyil və psixoloji rifahın qorunması üçün sağlam həyat tərzi, sosial münasibətlər və digər amillər də mühüm rol oynayır.

## Mütəxəssislər sirri açıqladı

### Ağcaqanadların ”sevimli qurbanları” məlum oldu



**Bəzi insanlar ağcaqanadların hədəfinə digərlərindən daha çox çevrilir. Mütəxəssislərin fikrincə, bunun səbəbi təkcə təsadüf deyil, qan qrupu, bədən qoxusu və maddələr mübadiləsi ilə bağlıdır.**

”Şərq” xəbər verir ki, araşdırmalara əsasən, I (0) qan qrupuna malik şəxslər ağcaqanadlar tərəfindən A qan qrupuna sahib insanlarla müqayisədə təxminən iki dəfə daha çox dişlənir.

Mütəxəssislər bildirirlər ki, nəfəs alarkən ifraz olunan karbon qazı, fiziki hərəkətdən sonra yaranan süd turşusu, yüksək bədən temperaturu və tünd rəngli geyimlər də ağcaqanadları daha çox cəlb edir. Hamiləlik, artıq çəki və spirtli içki qəbulu da dişlənmə riskini artıran amillər sırasındadır.

Həkimlər ağcaqanadlardan qorunmaq üçün gün doğan və gün batan saatlarda açıq havada ehtiyatlı olmağı, açıq rəngli uzunqollu geyimlərdən istifadə etməyi və DEET tərkibli həşərat əleyhinə vasitələrdən yararlanmağı tövsiyə edirlər.

Ağcaqanad dişlədikdən sonra isə həmin nahiyəni qaşımaq məsləhət görülmür. Qaşınmanı azaltmaq üçün ən təsirli üsul dişlənən yerə buz qoymaqdır. Bununla yanaşı, zərurət yaranarsa, hidrokortizon tərkibli kremlər və ya allergiya əleyhinə preparatlardan da istifadə oluna bilər.

## Yüksək hərarət, davamlı qusma

### Yayın istisində körpələr daha çox risk altındadır



**Yay mövsümündə körpə ilə istirahətə yollanan ailələr isti hava, günəş, uzun səfər və gigiyena qaydalarına xüsusi diqqət yetirməlidirlər.**

”Şərq” xəbər verir ki, bu barədə uşaq sağlamlığı və xəstəlikləri üzrə mütəxəssis Yusuf Çelik məlumat verib.

Həkimin sözlərinə görə, xüsusilə vaxtından əvvəl doğulan, xroniki xəstəliyi olan və ya yaxın zamanda infeksiya keçirən körpələr səfərə çıxmazdan əvvəl mütləq həkim müayinəsindən keçməlidirlər. O, həmçinin yaşa uyğun peyvəndlərin tamamlanmasının vacibliyini vurğulayıb.

Yusuf Çelik bildirib ki, ilk 6 ay yalnız ana südü ilə qidalanan körpələrdə isti günlərdə əmizdirmə tezliyi artırılmalı, əlavə qidaya keçən uşaqlara isə kifayət qədər maye verilməlidir. Açıqda qalmış və gigiyenasına əmin olunmayan qidalardan uzaq durmaq tövsiyə edilir.

Mütəxəssis körpələrin xüsusilə saat 11:00-16:00 arasında birbaşa günəş şüaları altında saxlanılmamasını, 6 aydan yuxarı uşaqlarda isə SPF 50 tərkibli günəş qoruyucularından istifadə edilməsini məsləhət görüb.

Həkim əlavə edib ki, yüksək hərarət, nəfəsalma çətinliyi, davamlı qusma, güclü ishal, susuzlaşma əlamətləri, qıcolma və ya ciddi travma hallarında vaxt itirmədən ən yaxın tibb müəssisəsinə müraciət olunmalıdır.





# Hər keçən gün daha az danışırıq

### Çikaqo və Harvard Universitetlərinin alimləri isə əksini düşünür

**Məlum olub ki, ictimai nəqliyyatda, kafedə və ya gözləmə zalında qısa söhbətlər edən insanlar özlərini daha xoşbəxt hiss edir və stress səviyyələri azalır.**

Son illər insanlar gündəlik həyatda əvvəlki illərlə müqayisədə daha az danışır və daha az söz işlədir. Mütəxəssislər bunun əsas səbəbləri kimi smartfonlardan istifadənin artması, məsafədən iş rejimi və rəqəmsal ünsiyyətin geniş yayılmasını göstərirlər.

”Şərq” xəbər verir ki, amerikalı tədqiqatçı Daniel Koksun istinad etdiyi araşdırmaya görə, 2005-2019-cu illər arasında ABŞ sakinləri hər il əvvəlki illə müqayisədə orta hesabla 330 söz az işlədiblər. Gündəlik danışıqda istifadə olunan sözlərin sayı isə 16 min 600-dən 12 minə enib.

Araşdırmada qeyd olunur ki, mesajlaşma tətbiqləri və emojilər şifahi ünsiyyəti əvəz etdikcə insanlar daha az söhbət edir. Mütəxəssislər bunun cəmiyyətin tənhalaşmasına da təsir göstərdiyini bildirirlər.

Çikaqo Universiteti və Harvard Universitetinin alimləri vurğulayırlar ki, insanların əksəriyyəti tanımadığı şəxslərlə söhbətin narahatlıq yaradacağını düşünsə də, araşdırmalar əksini göstərir. İctimai nəqliyyatda, kafedə və ya gözləmə zalında qısa söhbətlər edən insanların özlərini daha xoşbəxt hiss etdikləri və stress səviyyələrinin azaldığı müəyyən olunub.

Tədqiqatçılar hesab edirlər ki, hətta qısa salamlaşma, təşəkkür və ya xoş sözlər belə insanların psixoloji rifahına müsbət təsir göstərir və cəmiyyətdə sosial bağlılığı gücləndirir.



# Gündə neçə fincan içmək olar?

### Həkimlər ürək üçün təhlükəsiz qəhvə normasını açıqlayıblar

**Amerika Ürək Assosiasiyası (AHA) sağlam böyüklər üçün gündə 400 mq-a qədər kofeinin, yəni təxminən 3–5 fincan (240 ml) dəmlənmiş qəhvənin həm təhlükəsiz, həm də ürək-damar xəstəlikləri riskini azaltmağa kömək edə biləcəyini açıqlayıb.**

”Şərq” xəbər verir ki, mütəxəssislər ən sağlam seçimin şəkər, şərbət, qaymaq və digər əlavələrsiz qara qəhvə olduğunu bildiriblər. Araşdırmalara görə, belə qəhvənin müntəzəm və normada qəbulu 2-ci tip diabet, işemik ürək xəstəliyi, ürək çatışmazlığı və insult riskinin azalması ilə əlaqələndirilir.

Mütəxəssislər qeyd edirlər ki, qəhvənin faydası təkcə kofeinlə bağlı deyil. Tərkibindəki polifenollar, antioksidantlar və digər bioaktiv maddələr iltihabəleyhinə təsir göstərir və maddələr mübadiləsini dəstəkləyir.

Kardioloqlar qəhvənin kağız filtrdən keçirilərək hazırlanmasını daha məqsədəuyğun hesab edirlər. Bu üsul ”pis” xolesterinin (LDL) səviyyəsini artıra bilən kafestol maddəsinin böyük hissəsini saxlayır.

Mütəxəssislər enerji içkiləri ilə bağlı da xəbərdarlıq ediblər. Onların tərkibində qəhvədən xeyli çox kofein və digər stimullaşdırıcı maddələr olduğundan ürək ritminin pozulması və arterial təzyiqin kəskin yüksəlməsi riskini artıra bilər.

Bununla yanaşı, kofeinin qanda ən yüksək səviyyəyə təxminən bir saat sonra çatdığı, buna görə də qəhvənin ardıcıl və həddindən artıq qəbul edilməsinin tövsiyə olunmadığı vurğulanıb.

# Şagirdlər üçün yeni sistem

### Psixoloji risklər məktəbdə müəyyən ediləcək



**Türkiyədə məktəblərdə şagirdlərin psixi sağlamlığının qiymətləndirilməsi məqsədilə yeni risk tarama proqramı tətbiq olunacaq.**

”Şərq” xəbər verir ki, bu barədə Türkiyə Səhiyyə Nazirliyinin Xalq Sağlamlığı Baş İdarəsinin rəisi Ərdoğan Öz məlumat verib.

Onun sözlərinə görə, 4, 7, 9 və 11-ci siniflərdə şagirdlər, valideynlər və müəllimlər arasında anket əsaslı risk qiymətləndirilməsi aparılacaq. Araşdırma zamanı ümumi psixi sağlamlıq, qəzəbə nəzarət, impulsiv davranışlar, asılılıq, məktəb zorakılığı, özünə zərər vermə və istismar riskləri qiymətləndiriləcək.

Əldə olunan nəticələrə əsasən, risk səviyyəsi müəyyən ediləcək və ehtiyac yaranacağı təqdirdə şagirdlər sağlam həyat mərkəzlərinə, ailə həkiminə və ya xəstəxanaya yönləndiriləcək. Yüksək risk aşkarlanarsa, uşaq və yeniyetmə psixiatrına müraciət təmin olunacaq.

Layihənin Türkiyə Milli Təhsil Nazirliyi ilə birgə həyata keçirilməsi nəzərdə tutulur.

**Hazırladı: Turan**

## Diri-diri basdırılmaq qorxusu

### Bu, tabutların yaranmasına səbəb olub



**Keçmişdə ölüm əlamətlərinin yanlış qiymətləndirilə biləcəyi qorxusu insanların tarixdə ən qeyri-adi ixtiralardan birini yaratmasına səbəb olub. Söhbət ”təhlükəsizlik tabutları”ndan gedir.**

”Şərq” xəbər verir ki, XVIII-XIX əsrlərdə tibbin kifayət qədər inkişaf etmədiyi dövrdə bəzi insanlar huşunu itirdikdən və ya ağır xəstəlik keçirdikdən sonra səhvən ölü hesab edilərək dəfn olunmaqdan ehtiyat edirdilər. Bu qorxu hətta ”tafefobiya”- diri-diri basdırılmaq qorxusu adı ilə tanınırdı.

Bu narahatlıq nəticəsində ixtiraçılar ”təhlükəsizlik tabutları” hazırlayıblar. Tabutların içərisinə ip, zəng, hava borusu və müxtəlif siqnal mexanizmləri quraşdırılırdı. Məqsəd, əgər insan sağ olarsa, hərəkət edərək yerin üstündəki zəngi çalmaq və köməyə çağırmaq idi.

1829-cu ildə alman ixtiraçı İohann Qotfrid Taberger tərəfindən hazırlanan zəng sistemi həmin dövrün ən məşhur nümunələrindən biri hesab olunur. Bəzi modellərdə isə hava axınını təmin edən borular və tabutdakı hərəkəti çöldən göstərən mexaniki qurğular yerləşdirilirdi.

Tarixçilər bildirirlər ki, bu tabutların həqiqətən kiminsə həyatını xilas etməsinə dair etibarlı sübut yoxdur. Buna baxmayaraq, onlar insanların ölüm və səhv diaqnoz qorxusunun simvoluna çevrilib.

Mütəxəssislərin sözlərinə görə, müasir tibdə ölümün müəyyənləşdirilməsi daha dəqiq üsullarla aparıldığından bu cür qorxular əvvəlki dövrlərlə müqayisədə xeyli azalıb. Bununla belə, təhlükəsizlik tabutları tarixdə insanın ölüm qarşısında belə çıxış yolu axtarmaq istəyinin maraqlı nümunələrindən biri kimi qalır.

## "Tesla"nın gəlirləri artıb, xalis mənfəəti isə azalıb



**ABŞ-nin elektrik avtomobil istehsalçısı ”Tesla” 2026-cı ilin ikinci rübü üzrə maliyyə nəticələrini açıqlayıb.**

”Şərq” xəbər verir ki, şirkətin ümumi gəliri ötən ilin eyni dövrü ilə müqayisədə 26 faiz artaraq 28,2 milyard dollara çatıb. Bununla yanaşı, ”Tesla”nın xalis mənfəəti 5 faiz azalaraq 1,11 milyard dollar təşkil edib.

Şirkətin səhm üzrə düzəldilmiş mənfəəti də ötən ilin ikinci rübündəki 40 sentdən 33 sentə enib. Beləliklə, gəlirlər bazar proqnozlarını üstələsə də, mənfəət gözləntilərdən aşağı olub.

Tesla bildirib ki, süni intellekt, avtonom idarəetmə və istehsal infrastrukturuna yatırımların artması nəticəsində kapital xərcləri illik müqayisədə 142 faiz artaraq 5,79 milyard dollara yüksəlib.

Şirkət daha əvvəl açıqlamışdı ki, 2026-cı ilin ikinci rübündə 451 min 758 avtomobil istehsal edib, qlobal tədarükləri isə 25 faiz artaraq 480 min 126 ədədə çatıb.